MEDIA HÜQUQU QRUPU

# 2002-2021: AZƏRBAYCAN – AVROPA İNSAN HAQLARI MƏHKƏMƏSI

*Araşdırma* | *Mart, 2021* | Media Hüququ Qrupu

MEDIA HÜQUQU QRUPU

# 2002-2021: AZƏRBAYCAN – AVROPA İNSAN HAQLARI MƏHKƏMƏSI

***Hazırladı:*** Xalid Ağaliyev ***Əlaqə:*** khall_aghall@protonmail.com www.aihmaz.org

## *GİRİŞ*

Azərbaycan 15 aprel 2002-ci il tarixdə Avropa İnsan Hüquqları Konvensiyası və onun Protokollarının ratifikasiya olunduğunu bəyan edib. Həmin tarixdən Konvensiya və onun Protokolları Azərbaycana münasibətdə qüvvəyə minib və Azərbaycan Respublikası yurisdiksiyası altında olan şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək hüququ yaranıb. Media Hüququ Qrupu-nun hazırladığı bu araşdırma qeyd edilən tarixdən başlayaraq, Azərbaycan – Avropa İnsan Hüquqları Məhkəməsi münasibətləri kontekstindəki gəlişmələri əhatə edir.

Sənəddə ümumi olaraq, hüquq və azadlıqların qorunmasında AİHM alətinin önəmindən, bu alətdən istifadənin yönlərini düzənləyən milli qanuni mexanizmlərdən, AİHM-də şikayətlərə baxılmasının, qərarvermənin, qərarların icrasının prosessual tərəflərindən, durumundan bəhs edilir.

Sənəddə həmçinin, AİHM-ə şikayətlər, AİHM-in qəbul etdiyi qərarlar, qərarların icrası ilə bağlı görülmüş tədbirlərə illik statistik bilgilərin işığında yer verilib. Araşdırma AİHM-in, AŞ NK-nın, Azərbaycanın əlaqəli rəsmi qurumlarının, AİHM-ə şikayətçilərin, onların təmsilçilərinin bilgilərinə söykənir.

Hesabat 5 bölmədən ibarətdir. 1-ci bölmədə Azərbaycan – Avropa Şurası, AİHM münasibətlərinin tarixçəsinə yer verilib. 2-ci bölmə AIHM alətindən istifadənin qanunvericilik çərçivəsi barəsindədir. 3-cü bölmə AİHM qərarlarının icrası ilə bağlı milli qanunverici çərçivəyə həsr olunub.

Hesabatın 4-cü bölməsi 2002-ci ildən 2021-ci ilin əvvəlinə qədər Azərbaycandan AİHM-ə göndərilmiş şikayətlər, AİHM-in qərarları, həmin qərarlarla müəyyən edilən tədbirlər haqqındadır. Bu bölmədə təqdim edilən cədvəldə AİHM-in tanıdığı bütün pozuntuların statistikası ifadə olunur.

Hesabatın 5-ci bölməsi AİHM-in 2002-2021-ci illərdə Azərbaycanla bağlı çıxardığı qərarların icrası kontekstini əhatə edir.

Sənəd illik yenilənir, hazırkı sənəddəki bilgilər 2002-ci ildən 2021-ci ilin əvvəlinə qədərki gəlişmələri əhatə edir.

# İÇİNDƏKİLƏR:

**1-ci bölmə: Azərbaycan – Avropa Şurası, Avropa İnsan Haqları Məhkəməsi münasibətləri, tarixçə**

**2-ci bölmə: AIHM alətindən istifadənin qanunvericilik çərçivəsi**

AİHM qərarlarının icrası, icraya nəzarət proseduru

**3-cü bölmə: AİHM qərarlarının icrası, milli qanunverici çərçivə**

AR-nın AİHM yanında Səlahiyyətli nümayəndəsi
AR-nın Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulan tənzimləmələr
AR-nın Mülki Prosessual Məcəlləsində nəzərdə tutulan tənzimləmələr

**4-cü bölmə - 2002-2021: AİHM-ə şikayətlər, qərarlar, müəyyən edilən tədbirlər – ümumi mənzərə**

Şikayətlər və qərarlar, illər üzrə statistik bilgilər
Daha çox pozuntusu tanınan hüquqlar
Cədvəl: AİHM-in Azərbaycanla bağlı qərarları, pozuntu statistikası
Qərarlarla müəyyən edilən fərdi tədbirlər, təzminatlar

**5-ci bölmə - Qərarların icrası: 2002-2021**

**İcradakı qərarlar – illər üzrə ümumi bilgilər, icranın ümumi mənzərəsi**
**Qərarlarının icrasına dövlət büdcəsindən ayrılan vəsaitlər**
**İşlərə Ali Məhkəmədə yenidən baxılması**
**İcrası qapadılmış qərarlar**
**İcrası davam edən işlər**

## *1-ci bölmə:* Azərbaycan – Avropa Şurası, Avropa İnsan Haqları Məhkəməsi münasibətləri, tarixçə

Avropa Şurası Avropa qitəsinin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Şura 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalayıb.

Avropa Şurasının qərargahı Fransanın Strasburq şəhərindədir. İngilis və Fransız dilləri iki rəsmi dildir. Təşkilatın rəhbəri hesab olunan Avropa Şurasının Baş katibi 5 illik müddətə Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən seçilir. Baş katib təşkilatın fəaliyyətlərini istiqamətləndirir və Avropa Şurasının əsas təmsilcisi hesab olunur. AŞ-ın qərar verən qurumu olan Nazirlər Komitəsi qurumun üzvü olan ölkələrin xarici işlər nazirlərinin və yaxud onların Strasburqdakı daimi nümayəndələrindən formalaşır.

47 üzv dövlətin deputatlarının təmsil olunduğu Parlament Assambleyası Baş Katibi, İnsan hüquqları üzrə Komissarı və Avropa İnsan hüquqları Məhkəməsinin hakimlərini seçir. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi Avropa Şurasının bir təsisatıdır. Avropa İnsan Hüquqları Məhkəməsi, bütün Avropa sakinlərinin Avropa Konvensiyasında göstərilmiş hüquqlarına təminat verən və daimi fəaliyyət göstərən məhkəmə orqanıdır. Bu məhkəməyə dövlətlər və eləcə də vətəndaşlığından asılı olmayaraq, ayrıca şəxslər müraciət edə bilərlər. Avropa Şurasının İnsan hüquqları üzrə Komissarı insan hüquqları məsələlərini müstəqil müzakirə edir və diqqəti onların pozulmasına çəkir.

AŞ-ın Beynəlxalq qeyri-hökumət təşkilatları konfransı özündə 400-ə yaxın Beynəlxalq Qeyri-Hökumət Təşkilatlarını cəmləşdirir. Qurum siyasətçilərlə cəmiyyət arasında həyati əhəmiyyətli əlaqələr qurmağa və vətəndaş cəmiyyətinin səsini Avropa Şurasına çatdırmağa imkan yaradır.

Azərbaycanla Avropa Şurası arasında münasibətlərin tarixi 1992-ci ildən başlayıb. 1992-ci il 24 yanvar tarixdə Azərbaycan Respublikasının Parlamenti "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün Avropa Şurasına müraciət edib. 1995-ci ilin fevral ayında AŞ Parlament Assambleyası (AŞPA) Azərbaycanın «xüsusi dəvət edilmiş qonaq» statusu almaq barədə müraciətinin nəzərdən keçirilməsi təşəbbüsünü irəli sürüb.

Avropa Şurasının Qanun vasitəsilə Demokratiya üzrə Avropa Komissiyasının (Venesiya Komissiyası) 17-18 mart 1996-cı ildə keçirilən iclasında Azərbaycan bu komissiyaya üzv qəbul edilib. Həmin ilin iyun ayında AŞPA-nın Bürosu Azərbaycanın demokratik dövlət quruculuğu istiqamətində səylərini nəzərə alaraq, ölkəyə "xüsusi dəvət olunmuş qonaq" statusunun verilməsi haqqında qərar qəbul edib.

Azərbaycan Respublikası 13 iyul 1996-cı il tarixdə AŞ baş katibinə müraciət edib, Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmaq, İnsan hüquqları və azadlıqları haqda Avropa Konvensiyasına (Avropa İnsan Hüquqları Konvensiyası) qoşulmaq arzusunu ifadə edib. Bu müraciətdən sonra, AŞ Nazirlər Komitəsinin 11 sentyabr 1996-cı il tarixli 573-cü iclasında Azərbaycanın AŞ-a daxil olması, Azərbaycanda demokratiyaya keçid prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan hökuməti ilə danışıqların intensivləşdirilməsi, əməkdaşlıq proqramları formasında yardımın edilməsini nəzərdə tutan (96) 32 saylı qətnamə qəbul edilib.

Azərbaycan Respublikası 3 fevral 1998-ci il tarixdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində ən mühüm addımlardan birini atıb, ölkə parlamenti ölüm hökmünün ləğv edilməsinə dair qərar qəbul edib. AŞPA-nın 26 – 28 iyun 2000-ci il tarixdə keçirilmiş növbəti sessiyasında Azərbaycan Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul edilməsinə müsbət rəy verilib. AŞ Nazirlər Komitəsinin 7-9 noyabr 2000-ci il tarixdə keçirilən 107-

ci sessiyasında “Azərbaycanın Avropa Şurasına üzv olmağa dəvət edilməsi” adlı 14 (2000) saylı Qətnamə qəbul olunub. AŞ Nazirlər Komitəsi 17 yanvar 2001-ci il tarixdə isə Azərbaycanın AŞ-na tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edib.

AR 15 aprel 2002-ci il tarixdə Avropa İnsan Hüquqları Konvensiyası və onun Protokollarının ratifikasiya edilməsi haqqında sənədi depozitariyə təqdim edib. Həçmin tarixdən Konvensiya və onun Protokolları Azərbaycana münasibətdə qüvvəyə minib və AR yurisdiksiyası altında olan şəxslərin (vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin və digərlərinin) İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə (Avropa Məhkəməsi) müraciət etmək hüququ yaranıb.

AR Avropa Konvensiyasına qoşulmaqla bağlı Bəyanatında oan bəzi qeyd-şərtlər qoşub. Bu qeydlərdə AR bəyan edib ki, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyil. Bu qeyd Konvensiyanın 1 saylı Protokolunun 2-ci, Konvensiyanın 4, 6 və 7 saylı Protokolları ilə bağlıdır. Qeydlər həmçinin, Konvensiyanın 5, 6, 10-cu maddələri ilə əlaqəlidir. Həmin qeydlər, Silahlı Qüvvələrdə azadlıqdan məhrumetmə ilə bağlı məhkəmədən kənar intizam cəzalarının tətbiqini, ifadə azadlığı hüququnun “Kütləvi informasiya vasitələri haqqında” Qanunun 14-cü maddəsinin işığında təfsir və tətbiqini nəzərdə tutur.

## 2-ci bölmə - AIHM alətindən istifadənin qanunvericilik çərçivəsi

Azərbaycanın Avropa Konvensiyasını və ona əlavə edilən Protokolları ratifikasi etməsilə bu ölkəsinin yurisdiksiyasında olan bütün fərdlərin Konvvensiya və ona əlavə Prorokollarla təminat altına alınan hüquqlarına müdaxilə edilməsi əsası ilə AİHM-ə şikayət etmək hüququ yaranıb. Ancaq şikayət etmək üçün bəzi şərtlərə əməl edilməsi gərəklidir.

Konvensiyanın 35-ci maddəsində nəzərdə tutulduğu kimi şikayətçinin daxili hüquq müdafiə vasitələrini başa çatdırması və daxili məhkəmələrin sonuncu qərarından AİHM-ə sonrakı 6 ay içində şikayət etməsi lazımdır. Qeyd edilənlərdən əlavə imza edilməmiş ərizələr, başqa beynəlxalq məhkəmə və ya mühakimə quruluşları tərəfindən baxılmaqda olan, baxılmış və barəsində qərar verilmiş hadisələrlə bağlı olan ərizələr AİHM tərəfindən rədd edilir.

AİHM-ə göndərilən ərizələrdə ərizəçinin adı, doğum tarixi, milliyəti, cinsi, peşəsi, ünvanı, varsa təmsilçisinin adı, peşəsi, ünvanı, şikayət edilən ölkə göstərilməlidir. Şikayətdə haqqında şikayət edilən olayların açıqlamasına, Konvensiyanın iddia olunan pozuntuları, pozuntuları dəstəkləyən dəlillərə yer verilməlidir. Şikayətlər AİHM-in "Cour Européenne des Droits de L’Homme, Conseil de L’Europe, F-67075 Strasbourg-Cedex/FRANCE, Telefon: 33(0)3 88 41 20 18, Faks: 33 (0)3 88 41 27 30" ünvanına göndərilməlidir.

AİHM imzasız şikayətləri qəbul etmir. Ancaq adının açıqlanmamasını istəyən ərizəçilər ola bilər. Belə hallarda ərizəçi adının açıqlanmasını istəmədiyini qeyd etməli, bunun səbəblərini əsaslandırmalıdır. Əsaslandırma haqlı hesab edilərsə, AİHM ərizəçinin adının gizli tutulmasına qərar verə bilər. AİHM-ə göndərilən şikayətlərin hazırlandığı dilin önəmi yoxdur. AİHM yurisdiksiyasını qəbul etmiş ölkələrin vətəndaşları öz dillərində şikayət edə bilərlər. Ancaq şikayət göndərildikdən sonrakı mərhələlərdə yazışmalar ingilis və ya fransız dilində aparılacaq. AİHM qərarı yazışma zamanı istifadə edilmiş dilə uyğun olacaq.

AİHM yurisdiksiyasını qəbul etmiş ölkələrin vətəndaşları məhkəməyə birbaşa özləri şikayət edə bilərlər. Bununla bərabər, şikayətin icraata qəbul edilməsindən sonrakı mərhələsində hüquqi yardımdan istifadə etmək məcburidir. Hüquqşunaslar özlərini təmsil edə bilərlər.

AİHM qaydaları hüquqi yardım almaq imkanından məhrum olan şikayətçilərə hüquqi yardım edilməsi imkanını tanıyır. Bunun üçün Bölmə rəhbərinin qərar verməsi lazımdır. Belə qərarlar o halda verilir ki, hüquqi yardımın edilməsi işin yaxşı idarə edilməsi üçün gərəkli olsun, ərizəçi çəkməli olduğu xərcləri qismən və ya tamamilə qarşılamaq imkanında olmasın. Bölmə rəhbəri hər iki şərtin mövcud olması qənaətinə gələrsə, hüquqi yardım edilməsinə qərar verir. Hüquqi yardım ərizəyə AİHM-də baxılmasının bütün mərhələlərini əhatə edir.

Azərbaycan nümunəsində ərizəçi pulsuz hüquqi yardım üçün vəkil qurumlarına da müraciət edə bilər. Uyğun daxili qanunvericilik vətəndaşlara dövlət hesabına pulsuz hüquqi yardım institutunu təsbit edib. AİHM-ə şikayətlər kontekstində də ölkə vətəndaşlarının bu imkandan yararlanmasına məhdudiyyətlər gətirən heç bir qanuni əsas mövcud deyil.

AİHM-in müəyyən etdiyi təzminatlar AİHM qərarının qəti olması tarixindən hesablanmaqla, 3 ay ərzində ödənilməlidir. Bunun üçün ərizəçi səlahiyyətli dövlət orqanına müraciət etməli, gərəkli bilgiləri təqdim etməlidir.

AİHM-ə şikayət etmiş ərizəçilər şikayətin baxılmasının duruma haqda elektron yolla bilgi əldə edə bilərlər. Bunun üçün ərizəyə verilmiş nömrə tələb olunur. Ərizəçilər eyni zamanda yuxarıda qeyd edilmiş ünvana yazmaqla və ya telefon nömrələrinə zəng etməklə gərəkli bilgiləri əldə edə bilərlər.

.

## AİHM qərarlarının icrası, nəzarət proseduru

Avropa Şurasına üzv olan dövlətlər Avropa İnsan Haqları Məhkəməsinin qərarlarını tam olaraq icra etməlidirlər. Dövlətlər Avropa Konvensiyasına qoşulmaları ilə AİHM-in qərarlrın əməl etmək öhdəliyini götürmüş olublar. Bu öhdəlik Konvensiyanın 46-cı maddəsində təsbit olunub. Üzv dövlətlər eyni zamanda AİHM qərarlarının icra edilməsi üçün gərəkli olan tədbirləri seçməkdə sərbəstdirlər. Buna görə, həyata keçiriləcək tədbirlər, dövlətlər tərəfindən müəyyən edilir.

AİHM qərarlarının icrasına nəzarəti Avropa Şurasının Nazirlər Komitəsi (AŞ NK) həyata keçirir. AŞ NK Şuraya üzv olan 47 dövlətin nümyəndələrindən formalaşır. AŞ NK-da dövlətləri rəsmən xarici işlər nazirləri təmsil edir, təcrübədə isə nazirlərin rolunu dövlətlərin Srasburqdakı daimi nümayəndəliklərinin təmsilçiləri həyata keçirir. AŞ NK-ya nəzarət prosesində onun Katibliyi və İnsan haqları və hüququn üstünlüyü baş direktorluğunun bir hissəsi olan Qərarların İcrası Departamenti gərəkli dəstəyi verir. Departament qərarların icrası üçün gərəkli olan tədbirlərin müəyyən edilməsində üzv dövlətlərlə sıx işləyir və NK-nə tövsiyyələr verir. Bundan əlavə, qərarların icrasında Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin, AŞPA-nın qərarların icrası üzrə Məruzəçisinin, AŞ İnsan Haqları Komissarının iştirak rolları var.

NK AİHM-in mahiyyət üzrə qərarlarının, dostca anlaşmaların, ərizələrin baxılacaq işlərin siyahısından çıxarılmasını nəzərdə tutan qərarların icrasına nəzarət edir. Konvensiyaya görə, AŞ-na üzv dövlətlər AİHM-in təsbit etdiyi pozuntuları aradan qaldırmaqla bağlı hüquqi öhdəlik daşıyırlar. Bu öhdəlik iki növ tədbirlərin həyata keçirilməsi ilə həyata keçirilir:

Fərdi tədbirlər, qurbanları mümkün olduğu qədər pozuntu baş verməzdən əvvəlki durumlarına qaytarmağı hədəfləyir. Təzminatların ödənilməsi (ədalətli əvəz) ən yayğın fərdi tədbirdir. Təzminat həm maddi, həm də mənəvi ziyanı əhatə edir. Fərdi tədbirlər həmçinin, şxəsin əvvəlki işinə bərpoa edilməsi, ədalətsiz məhkəmə

araşdırmasının yenilənməsi, mülkiyyətin geri verilməsi, yerli məhkəmə qərarlarının icra edilməsi, ədalətsiz məhkəmə qərrı nəticəsində azadlıqdan məhrum edilmiş şəxsin sərbəst buraxılması və s. ilə bağlı ola bilər.

Ümumi tədbirlərin hədəfi isə dövlətlərin gələcəkdə oxşar pozuntuların qarşısını almasıdır. Bu tədbirlər daha çox dövlətlərin daxilində məhkəmə təcrübəsinin, saxlama şəraitinin yaxşılaşdırılması, hüquqi, siyasi və icra sistemində islahatların aparılması ilə əlaqəlidir.

AİHM qərarı qəti olduqdan sonra icrasına nəzarət edilməsi üçün NK-nə göndərilir. NK-nın qərarların icrasına ildə 4 dəfə keçirilən İnsan Haqları Toplantısında baxır. NK İnsan Haqları Toplantıları hər il mart, iyul, sentyabr və dekabr aylarında keçirilir. Toplantılar qapalı keçirilir, qurbanların, vətəndaş cəmiyyəti təşkilat və nümayəndələrinin toplantılara qaırlmasına icazə verilmir.

AİHM qərarları qəti qüvvəyə mindikdən sonra AŞ NK-ya təqdim edilir və toplantıların gündəliyinə daxil edilir. Dövlətlər qərar qəti oldqudan sonra mümkün qədər qısa zamanda, ancaq qərarın qəti olmasından sonra ən çox 6 ay müddətində həmin qərarın tam icra edilməsi üçün hansı tədbirlərin görüləcəyi ifadə olunan fəaliyyət planını təqdim etməlidir. Fəaliyyət planı qərarın ideal icrası üçün dövlətin hansı tədbiri nə zaman həyata keçirəcəyini aydın və detallı ifadə etməlidir. Fəaliyyət planı NK-nə göndərilən uyğun təqdimatlar əsasında gərəkli dəyişikliklərə məruz qala biləcək sənəddir.

Fəaliyyət planında, ona edilmiş dəyişikliklərdə nəzərdə tutulan tədbirlər həyata keçirildikdən sonra dövlət nəzərdə tutulmuş və icra edilmiş tədbirlərin ifadə edildiyi yekun hesabatı təqdim edir və NK-ni həmin qərarın icrasına nəzarəti qapatmağa dəvət edir. Qərarın icrası üçün hər hansı tədbir tələb olunmursa, dövlət gərəkli addımları daha əvvəl atmışdısa, fəaliyyət planı təqdim etmədən də hesabat təqdim oluna bilər.

Ədalətli əvəzin ödənilməsinin şərtləri – təzminatın məbləği, məbləğin ödəniləcəyi tarix, məbləğin ödənilməsinin gecikməsinə görə faiz və s. AİHM qərarının mətnində göstərilir. AİHM-in qərarlarında adətən, ədalətli əvəzin ödənilməsindən başqa həyata keçirilməli olan tədbirlər qeyd edilmir. Məhkəmə işlərinin çoxunda qərarın tam icra edilməsi üçün gərəkli olan tədbirlərin müəyyən edilməsi NK ilə dialoq şəraitində dövlətlərin öhdəsinə buraxılır. NK və Qərarların İcrası Departamenti bu prosesə ara qərarları, tövsiyyələri ilə töhfələr verir.

AİHM qərarlarının icrasına qərarların “aparıcı”, “təkrarlanan” və “izolə edilmiş” işlər üzrə təsnifləndirilməsi işığında nəzarət edilir. Belə təsnifləndirmə qərarların icrasına nəzarət sisteminin asanlaşdırlmasına xidmət edir. Təsnifləndirmənin məqsədi “aparıcı işlər”in müəyyən edilməsidir. Bu işlər yeni ümumi tədbirlərin həyata keçirilməsini zəruri edən, kompleks və ya struktural problemləri ortaya çıxaran qərarlardır. Daha əvvəlki məhkəmə işlərində təsbit olunan sistemli problemlərlə bağlı olan işlər “təkrarlanan işlər” kimi təsnif edilir. Müəyyən edilmiş pozuntular xüsusi şərtlərdən qaynaqlanıbsa, hansısa ümumi tədbirin görülməsi tələb olunmursa, həmin işlər ”izolə edilmiş” işlər kimi təsnifləndirilir.

Adətən, AŞNK qərarların icrasına nəzarəti, qərarları qruplaşdırmaqla həyata keçirir. “Təkrarlanan” işlər “aparıcı” işlərin adının altında formalaşan qruplara daxil edilir. Azərbaycan nümunəsində, məsələn, “Nemət Əliyev işi qrupu”nda “aparıcı” Nemət Əliyev Azərbaytcan qarşı işidir. Həmin qrupa seçki hüququnun pozutusu tanınmış digər işlər “təkrarlanan” işlər kimi daxil edilib. “Aparıcı” qərarların icrası üçün təqdim edilmiş fəaliyyət planlarında nəzərdə tutulan bütün ümumi tədbirlər, həm də həmin qrupa daxil edilmiş bütün “təkrarlanan” qərarların icrası üçün keçərlidir. AŞ NK “aparıcı” qərarın icra edilməsinin başa çatmasına qərar verdikdə, bu, həmin qrupa daxil edilmiş bütün “təkrarlanan” qərarlara da aid edilir.

AŞNK artıq 10 ilə yaxındır ki, qərarların icrası prosesinə ikiqat nəzarət sistemini tətbiq edir. Bu sistemin məqsədi qərarların icrasının təsirliliyini yüksəltmək məqsədi daşıyır. Bu sistem icrası nəzarət altında olan işləri "standart" və "genişləndirilmiş" olmaqla, iki qrupda təsnifləndirir. Bu iki sistem bir-birindən fərqlidir. "Genişləndirilmiş" nəzarət sisteminə daxil edilmiş qərarların icrası NK-nın insan haqları toplantılarının hər 3 aydan bir keçirilən toplantılarının gündəmində saxlanılır. "Standart" nəzarət altında olan qərarların icrasına diqqət bir qədər fərqlidir. Bu işlərdə icraya nəzarət böyük ölçüdə Qərarların İcrasına Nəzarət Departamentinin kontrolunda olur, AŞ NK öz rolunu ona təqdim edilmiş fəaliyyət planlarını və hesabatlarını yoxlamaqla məhdudlaşdırır.

"Genişləndirilmiş" nəzarət kateqoriyasına daxil edilməsi üçün AİHM qərarlarının bəzi ölçülərə cavab verməsi lazımlıdır. Bu kateqoriyaya təcili fərdi tədbirləri nəzərdə tutan, örnək, məzmununda iri sistematik problemləri daşıyan və dövlətlərarası qərarlar daxil edilir. Qərarların təsniflədirilməsi Qərarların İcrasına Nəzarət Departamentinin tövsiyyəsi üzrə NK-nın səlahiyyətindədir. NK həmçinin, dövlətlərin, Qərarların İcrasına Nəzarət Departamentinin istəyi əsasında "standart" nəzarət altında olan hansısa qərarı, "genişləndirilmiş" nəzarət sisteminə daxil edə bilər. Qurbanlara, vətəndaş cəmiyyəti qurumlarına da AŞ NK-dan belə bir istəkdə bulunmaq imkanı tanınır.

NK həmçinin, "genişləndirilmiş" sistemdə icrasına nəzarət edilən işləri, "standart" nəzarət sisteminə transfer də edə bilər. Belə hallar qərarın "genişləndirilmiş" nəzarət sisteminə daxil edilməsinə səbəb olan əsaslar (təcili fərdi tədbirlər yerinə yetirildikdə, sistemli problem aradan qalxdıqda və s.) ortadan qalxdığı hallarda mümkündür.

## 3-cü bölmə: AİHM qərarlarının icrası, milli qanunverici çərçivə

AR Konstitusiyanın 12-ci maddəsinin 2-ci hissəsinə əsasən, Konstitusiya ilə təminat altına alınan insan və vətəndaş hüquqları və azadlıqları AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Konstitusiya Avropa Məhkəməsinin qərarlarının Azərbaycan Respublikasında icrasının məcburiliyini tanıyır. Konstitusiyanın 148-ci maddəsinə görə, AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-nın qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsində vurğulanır ki, AR-nın qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Konstitusiya qanunları və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-nın tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

## AR-nın AİHM yanında Səlahiyyətli nümayəndəsi

Azərbaycanı AİHM qarşısında "Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının Səlahiyyətli nümayəndəsi" təmsil edir. AR ilə AİHM arasında əlaqələrdən Səlahiyyətli nümayəndə məsuldur.
"Avropa Məhkəməsi yanında AR-nın Səlahiyyətli nümayəndəsi haqqında" Azərbaycan prezidentinin 2003-cü ilin noyabrında imzaladığı fərmana görə, səalhiyyətli nümayəndəliyin təminatı məsələləri AR Prezidentinin Administrasiyasının rəhbərinə həvalə edilib. AR-nın Nazirlər Kabineti hər il dövlət büdcəsi hazırlanarkən, AİHM qarşısında

AR-nın maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası üçün maliyyə vəsaitinin ayrılmasını nəzərə alır.

Göründüyü kimi AİHM-lə, onun qərarları ilə münasibətdə məsul institut səlahiyyətli nümayəndə institutudur. "Avropa Məhkəməsi yanında AR-nın Səlahiyyətli nümayəndəsi haqqında" əsasnamədə nümayəndənin fəaliyyətlərinin aspektləri əksini tapır.

Səlahiyyətli nümayəndəni prezident təyin edir. Ali hüquq təhsili, insan hüquqlarının müdafiəsi məsələləri üzrə təcrübəyə malik olmaq, AŞ-nın rəsmi dillərindən birini bilmək səlahiyyətli nümayəndə təyinatının şərtidir. AR Prezidenti Administrasiyasının rəhbərinin səlahiyyətli nümayəndənin təmsilçisini təyin etmək hüququ var. Səlahiyyətli nümayəndənin hüquqi və təşkilatı-texniki təminatını Prezidentinin Administrasiyasının "Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin İnsan hüquqlarının müdafiəsi məsələləri sektoru" həyata keçirir.

Səlahiyyətli nümayəndə AİHM qərarlarının icra edilməsi prosesində başlıca instansiyadır. O, AİHM-in və Avropa Şurası Nazirlər Komitəsinin qərarlarının icrasının təmin edilməsi məqsədi ilə uyğun dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək funskiyası daşıyır. AİHM qərarlarının hüquqi nəticələrini öyrənmək, presedent hüququ nəzərə alaraq qanunvericiliyin və hüququn tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq da SN-nin funksiyalarına daxildir.

SN səlahiyyətlərinə aid məsələlərin həllinə dair işçi və ekspert qrupları yarada, ekspertləri bu qruplara cəlb edə bilər. Ancaq həmin işçi qrupların tərkibi və fəaliyyət müddəti kimi məsələri müəyyən etmək AR Prezidenti Administrasiyasının rəhbərinin səlahiyyətindədir.

AİHM qərarlarının icra proseduruna gəlincə, SN AİHM qərarlarının icrası istiqamətində fərdi və ümumi tədbirlərin həyata keçirilməsi, qərarın tam və vaxtında icra edilməsi üçün uyğun dövlət orqanlarını bilgiləndirir.

Səlahiyyətli nümayəndənin səalhiyyətləri AİHM-lə əlaqələr kontekstində çərçivələnmir, onun, ad hoc əsaslarla AR-nı insan hüquqları sahəsində ixtisaslaşmış digər təsisatlar qarşısında da təmsil etmək hüququ var.

AŞ NK-nın "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları ilə əlaqədar dövlətdaxili səviyyədə işlər üzrə icraatın təzələnməsi və onlara yenidən baxılması haqqında" tövsiyyəsi AİHM qərarları üzrə milli səviyyədə icraatın yenilənməsini nəzərdə tutur. İcraatın təzələnməsi üçün müəyyən şərtlər mövcud olmalıdır. Pozuntu elə ciddiliyə malik olmalıdır ki, şikayət edilən milli məhkəmə prosesinin nəticəsini şübhə altına qoymuş olsun. Həm də fərd milli məhkəmələrin qərarları nəticəsində ciddi neqativ təsirlərə məruz qalmaqda davam etməli, bu təsirin aradan qaldırılması üçün ədalətli əvəzin ödənilməsi yetərli olmamalıdır. AR-nın milli qanunvericiliyi AİHM qərarlarının icra edilməsi kontekstində qərarların faktları üzrə icraatın təzələnməsinə və işə ölkədaxili məhkəmələrdə yenidən baxılmasına imkan verir. Qeyd edilən məsələlər AR-nın həm cinayət prosessual, həm də mülki prosessual qanunvericiliyində ifadəsini tapıb.

## AR-nın Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulan tənzimləmələr

Bu məcəlləyə görə, AİHM qərarları milli məhkəmə aktlarına yeni hallar üzrə baxılması üçün əsaslardan biri hesab edilir. Məcəllənin 455-ci maddəinə görə:

455.0. Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxılması üçün əsaslar aşağıdakılardır:

…455.0.2. Avropa Məhkəməsi tərəfindən AR-nın məhkəmələrində … "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının pozulduğu müəyyən edilməsi;

Maddə 456. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması

Məhkəmə aktlarına yeni hallar üzrə baxılması hüququ AR-nın Ali Məhkəməsinin Plenumuna aiddir. Məcəllənin 456-cı maddəsinə görə:

456.1. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması hüququna AR Ali Məhkəməsinin Plenumu malikdir.

456.2. AR Ali Məhkəməsinin Plenumu … Avropa Məhkəməsinin qərarlarının icrası ilə bağlı yalnız hüquqi məsələlər üzrə işlərə baxır. … Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqda Ali Məhkəmənin sədri hakimlərin birinə işin plenumun məhkəmə iclasına hazırlanmasını və məruzə edilməsini tapşırır. İşə plenumun məhkəmə iclasında … Avropa Məhkəməsinin qərarı … daxil olduqdan sonra 3 aydan gec olmayan müddətdə baxılır.

Ali Məhkəmənin Plenumunun AİHM qərarlarının icrası kontekstində işlərə yenidən baxarkən, 3 növ qərar qəbul etmək hüququ var. Plenum, işlə bağlı bütün yerli məhkəmə instansiyalarının qərarlarının tam və ya qismən ləğv edilməsinə, iş materiallarının yenidən baxılması üçün aidiyyəti üzrə müvafiq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsinə qərar verə bilər. Pelnum, həmçinin, kassasiya instansiyası məhkəməsinin qərarının dəyişdirilməsinə, kassasiya instansiyası məhkəməsinin qərarının ləğv edilməsi və yeni qərarın çıxarılmasına da qərar verə bilər.

## AR-nın Mülki Prosessual Məcəlləsində nəzərdə tutulan tənzimləmələr

Mülki prosessual qanunvericilik də AİHM qərarlarını milli məhkəmə qərarlarına yenidən baxılmasının əsaslarından elan edir. Məcəllənin 431-ci maddəsinə görə, Avropa Məhkəməsinin Azərbaycan Respublikasının məhkəmələrinin işə baxarkən Avropa Konvensiyanın müddəalarını pozmasını müəyyən etməsi həmin işə yebi hallar üzrə baxılması üçün əsasdır.

Mülki məzmunlu işlərə də yeni hallar üzrə Ali Məhkəmənin Plenumu, yalnız hüquqi məsələlər üzrə baxır. İşə baxılmasının prosedurları cinayət işlərində olduğundan fərqli deyil.

Qeyd edilənlərdən əlavə, Azərbaycan Respublikasında qəbul edilmiş xeyli başqa aktlar da var ki, onlar, AİHM qərarlarına əməl olunmasını, nəzərə alınmasını təşviq edir.

AR Prezidentinin 2006-cı ildə imzaladığı "AR-da məhkəmə sisteminin müasirləşdirilməsi ... haqqında" fərman AİHM təcrübəsinin nəzərə alınmasını nəzərdə tutur. Fərman 6-cı bəndində vurğulanır:
"...AR Ali Məhkəməsinə, ... apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etsinlər və onu məhkəmə təcrübəsində nəzərə alsınlar...."

AR Ali Məhkəməsinin Plenumunun "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı Avropa Konvensiyası müddəalarının və Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 30 mart 2006-ci il tarixli qərarına görə:

"İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının yerinə yetirilməsi zəruri hallarda həm Konvensiyada nəzərdə tutulmuş insan hüquqlarının pozuntusunun, həm də ərizəçi üçün onun zərərli nəticələrinin aradan qaldırılması məqsədilə xüsusi, həmçinin eyni xarakterli pozuntuların gələcəkdə baş verməsinin qarşısının alınması üçün ümumi xarakterli tədbirlərin görülməsini nəzərdə tutur. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları yalnız onun icraatında olan işlərin həllinə deyil, həmçinin geniş mənada Konvensiya normalarının izah edilməsinə, qorunmasına, inkişafına xidmət edir və bu yolla dövlətlərin Konvensiya iştirakçısı kimi daşıdıqları öhdəliklərə riayət olunmasına yardım göstərir. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən dövlətin Konvensiya əsasında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etməlidirlər".

## 4-cü bölmə - 2002-2021: AİHM-ə şikayətlər, qərarlar, müəyyən edilən tədbirlər – ümumi mənzərə

- Şikayətlər və qərarlar, illər üzrə statistik bilgilər
- Daha çox pozuntusu tanınan hüquqlar
- Cədvəl: AİHM-in Azərbaycanla bağlı qərarları, pozuntu statistikası
- Qərarlarla müəyyən edilən fərdi tədbirlər, təzminatlar

### Şikayətlər və qərarlar, illər üzrə statistik bilgilər

Azərbaycanın AİHM yurisdiksiyasını qəbul etdiyi 2002-ci ildə Azərbaycandan bu məhkəməyə 265 şikayət göndərilib. AİHM-in statistik bilgilərinə görə, hətta, yurisdiksiya qəbul edilməzdən öncə də AİHM-ə 100-lərlə şikayət göndərilib.

AİHM-ə Azərbaycandan 2003-cü ildə 266, 2004-cü ildə isə 225[1] şikayət göndərilib. Həmin il şikayətlərin 200-ü baxılacaq işlərin siyahısından çıxarılıb. 2005-ci ildə AİHM-ə göndərilən 172[2] şikayətin 120-si baxılacaq işlərin siyahısından xaric olunub. AİHM Azərbaycanla əlaqəli ilk qərarını 2003-cü ildə qəbul edib. 30 yanvar 2003-cü il tarixdə elan edilmiş PERCHENOK against Azerbaijan qərarı ərizənin qəbuledilməzliyi ilə bağlı olub[3].

2006-cı ildə Azərbaycandan AİHM-ə göndərilən şikayətlərin sayında nəzərəçarpan artım müşahidə olunur.

Həmin il AİHM-ə göndərilən şikayətlərin sayı 445[4]-dən çox olub. Həmin şikayətlərin 57-si qəbul edilməz sayılıb və ya başqa əsasla baxılacaq işlərin siyahısından xaric edilib. 2006-cı ildə şikayətlərin 13-ü ilə bağlı hökumətlə kommunikasiya edilməsinə başlanılıb.

2006-cı ilin sonunda AİHM-də ümumilikdə, Azərbaycandan gözləyən 1480 şikayət baxılmasını gözləyirdi. Həmin tarixə qədər AİHM ümumilikdə, 422 şikayəti qəbul edilməz sayıb, onların siyahıdan çıxarılmasına qərar vermişdi. Hökumətlə 36 şikayətin kommunikasiyasına başlanılmışdı.

AİHM Azərbaycanla bağlı mahiyyəti üzrə ilk qərarını da 2006-cı ildə elan etdi. Qərar 1992-1993-cü illərdə Azərbaycan Daxili Qoşunlarının komandanı olmüş Fəhmin Hacıyevin şikayəti üzrə elan edildi. Fəhmin Hacıyev 1994-cü ildə həbs edilmişdi. Özünü günahsız hesab etsə də məhkəmə onu 1992-ci ilin fevralında Qarabağda – Xocalı şəhərinin işğalı zamanı vəzifə səlahiyyətlərini aşmaqda və bir neçə hərbi cinayətlərdə suçlu bilmişdi. Sabiq DQ komandanı 15 il azadlıqdan məhrum edilmişdi. O, 2013-cü ilin yanvarında Avropa Məhkəməsinə şikayət etmiş, ədalətsiz mühakimə olunduğunu iddia etmişdi. Şikayət göndəriləndən sonra - 2004-cü ildə həm Fəhmin Hacıyevin cəzası 5 il yüngülləşdirilmiş, həm də cəzasının başa çatmasına bir neçə həftə qalmış əfv edilmişdi. AİHM 2006-cı ilin noyabrında Fəhmin Hacıyevin ədalətli məhkəmə araşdırması hüququnun pozuntusunu tanıdı. Məhkəmə dövlətin üzərinə vəzifə qoydu ki, F.Hacıyevə mənəvi ziyana görə üç min, məhkəmə xərclərinə və digər məsrəflərə görə iki min beş yüz avro ödəsin[5].

---

[1] https://www.echr.coe.int/Documents/Annual_report_2004_ENG.pdf AİHM-in 2004-cü il üzrə İllik Hesabatı, səhifə 118
[2] https://www.echr.coe.int/Documents/Annual_report_2005_ENG.pdf AİHM, İllik Hesabat, səhifə 123
[3] http://hudoc.echr.coe.int/eng?i=001-23045, Qərara keçid
[4] https://www.echr.coe.int/Documents/Annual_report_2005_ENG.pdf ECHR, Annual Report, page 98
[5] http://hudoc.echr.coe.int/eng?i=001-78064, Qərara keçid

2007-ci ildə də Azərbaycandan AİHM-ə göndərilən şikayətlərin sayında artım tempi davam edib. Həm də həmin il Azərbaycanla bağlı çıxarılan qərarların sayında artım müşahidə olunmağa başladı.

2007-ci ildə Azərbaycandan AİHM-ə göndərilən şikayətlərin sayı 708 olmuşdu. Həmin ilin sonunda baxılmasını gözləyən şikayətlərin ümumi sayı 979[6] idi. 2007-ci ildə AİHM Azərbaycanla bağlı 7 qərar qəbul etdi. AİHM həmin qərarlarında səmərəli hüquq müdafiə vasitələri, işgəncələrə məruz qalmamaq, ədalətli məhkəmə araşdırması, mülkiyyət və birləşmək hüququnun pozuntusunu tanımışdı.

2008-ci ildə Azəraycandan AİHM-ə göndərilən şikayətlərin sayında əvvəlki illərlə müqayəsədə xeyli azalma müşahidə olunub - 334[7] şikayət. Ancaq baxılmasını gözlkəyən şikayətlərin sayında artım tempi hakim idi. İlin sonunda ümumilikdə 1051 şikayət baxılmasını gözləyirdi.
2008-ci ildə AİHM Azərbaycanla bağlı 9 qərarını elan edib. Həmin qərarlarda səmərəli hüquq müdafiə vasitələri, ədalətli məhkəmə araşdırması, mülkiyyət, hərəkət azadlığı, birləşmək və ifadə azadlığı hüququnun pozuntusu tanınmışdı.

2009-cu ildə Azərbaycandan göndərilib, baxılmasını gözləyən şikayətlərin sayı bir qədər də artıb 1104-ə çatıb. Həmin il AİHM-ə Azərbaycandan göndərilən şikayətləri 361 olub. AİHM il ərzində Azərbaycanla bağlı mahiyyəti üzrə 7[8] qərar verib. AİHM həmin qərarlarında yaşamaq, seçki, işgəncələrə məruz qalmamaq, ədalətli məhkəmə araşdırması, mülkiyyət hüququnun pozuntusunu tanımışdı.

2010-cu ildə Azərbaycandan AİHM-ə 334 şikayət göndərilib. Həmin ilin sonunda baxılmasını gözləyən şikayətlərin sayı bir qədər də artaraq 1254-ə çatıb. İl ərzində Azərbaycanla bağlı 16[9] qərar çıxarılıb. Həmin qərarlarda ədalətli məhkəmə araşdırması, ifadə azadlığı, səmərəli hüquq müdafiə vasitələri, mülkiyyət, azadlıq və toxunulmazlıq, seçki hüquqlarının pozuntusu tanınmışdı.

2011-ci ilin sonunda Azərbaycandan göndərilən, baxılmasını gözləyən işlərin sayı yenə də xeyli artıb. Həmin ilin sonunda bu kateqoeriya üzrə AİHM-də 1692 şikayət vardı. İl ərzində Azərbaycandan AİHM-ə 532[10] şikayət göndərilmişdi. Həmin il Azərbaycana qarşı 9 qərar çıxarılmışdı. Həmin qərarlarda azadlıq və toxunulmazlıq, mülkiyyət, səmərəli hüquq müdafiə vasitələri, birləşmək, ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu tanınmışdı.

2012-ci ildə Azərbaycandan AİHM-ə 342 şikayət[11] göndərilib. Həmin ilin sonunda AİHM-də Azərbaycanla bağlı ümumilikdə 1299 şikayət baxılmasını gözləyirdi. İl ərzində Azərbaycana qarşı 17 qərar çıxarılıb. Həmin qərarlarda seçki, ədalətli məhkəmə, işgəncəyə məruz qalmamaq, mülkiyyət, ifadə azadlığı hüququnun pozuntusu tanınmışdı.

2013-cü ildə Azərbaycandan AİHM-ə ümumilikdə 325 şikayət göndərilmişdi. İlin sonunda baxılmasını gözləyən ümumi şikayətlərin sayı isə 1293 olmuşdu. İl ərzində Azərbaycana qarşı çıxarılan ərarların sayı 8[12] olub. Qərarlarda işgəncəyə məruz qalmamaq, ədaləlti məhkəmə araşdırması, birləşmək, mülkiyyət, səmərəli hüquq müdafiə vasitələri hüquqlarının pozuntusu tanınıb.

[6] https://www.echr.coe.int/Documents/Annual_report_2007_ENG.pdf, ECHR, Annual Report, page 138
[7] https://www.echr.coe.int/Documents/Annual_report_2008_ENG.pdf, ECHR, Annual Report, page 130
[8] https://www.echr.coe.int/Documents/Annual_report_2009_ENG.pdf, ECHR, Annual Report, page 142
[9] https://www.echr.coe.int/Documents/Annual_report_2010_ENG.pdf, ECHR, Annual Report, page 148
[10] https://www.echr.coe.int/Documents/Annual_report_2011_ENG.pdf, ECHR, Annual Report, page 156
[11] https://www.echr.coe.int/Documents/Annual_report_2012_ENG.pdf, ECHR, Annual Report, page 154
[12] https://www.echr.coe.int/Documents/Annual_report_2013_ENG.pdf, ECHR, Annual Report, page 198

2014-cü ildə Azər baycandan AİHM-ə göndərilən şikayətlərin sayı 403 olmuşdu. 1404 şikayət baxılmasını gözləyirdi. İl ərzində Azərbaycana qarşı çıxarılan qərarların sayı isə 11[13] olub. Həmin qərarlarda yaşamaq, işgəncəyə məruz qalmamaq, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, birləşmək hüququnun, habelə, Konvensiyanın 18-ci maddəsinin (Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) hüququnun pozuntusu tanınıb.

2015-ci ildə Azərbaycandan AİHM-ə ümumilikdə, 268 şikayət göndərilib. İl boyunca Azərbaycana qarşı 19 qərar[14] çıxarılıb. Həmin qərarlarda işgəncəyə məruz qalmamaq, azadlıq və toxunulmazlıq, mülkiyyət, seçki, ədalətli məhkəmə araşdırması, şəxsi həyatın toxunulmazlığı, ifadə azadlığı hüquqlarının pozuntuları tanınıb.

2015-ci ildə Azərbaycan baxılmasını gözləyən şikayətlərin sayı üzrə AİHM məkanına daxil olan ölkələrin önünə çıxır. Həmin ilin sonunda Azərbaycandan göndərilən 1522 şikayət baxılmasını gözləyirdi. Azəraycan 48 ölkə arasında ilk onluqda idi, AİHM-də baxılmasını gözləyən şikayətlərin hamısının 2.3 faizi Azərbaycanın payına düşürdü. Bu göstəricidə Ukrayna 21 faizlə, Rusiya 14 faizlə, Türkiyə 13 faizlə ilk 3 ölkə idi.

2016-cı ildə Azərbaycandan göndərilən, baxılmasını gözləyən şikayətlərin sayı bir qədər də artıb - 1662 şikayət. Bu kateqoriyada Azərbaycan AŞ ölkələri arasında 9-cu idi. Həmin şikayətlərin 333-ü 2016-cı ildə göndərilmişdi.
İl ərzində AİHM Azərbaycanla bağlı 16[15] qərar vermişdi. Həmin qərarlarda işgəncəyə məruz qalmamaq, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, birləşmək, seçki, mülkiyyət hüquqlarının, habelə, Konvensiyanın 18-ci maddəsinin (Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) hüququnun pozuntusu pozuntusu təsbit edilmişdi.

2017-ci ildə Azərbaycandan AİHM-ə göndərilən şikayətlərin sayı 679-dan çox olub. İl ərzində əvvəlki illərin göstəriciləri ilə müqayisədə mahiyyəti üzrə xeyli çox qərar qəbul edilib - 26[16] qərar. Həmin qərarlarda yaşamaq, işgəncəyə məruz qalmamaq, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, birləşmək, seçki, mülkiyyət hüquqlarının, habelə, Konvensiyanın 18-ci maddəsinin (Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) hüququnun pozuntusu pozuntusu təsbit edilmişdi.

2017-ci ildə baxılmasını gözləyən şikayətlərin sayında da ciddi artım nəzərə çarpırdı. Azərbaycandan göndərilən belə şikayətlərin sayı həmin ilin sonunda 2027-yə çatmışdı. AŞ ölkələri arasında Azərbaycan bu kateqoriyada 7-ci pillədə idi.

2018-ci ildə AİHM-də baxılmasını gözləyən şikayətlərdə Azərbaycanın payı bir qədər də artıb, 2050-yə çatıb. Baxılmasını gözləyən şikayətlərin sayında görə, Azərbyacan həmin il 48 ölkə arasında 6-cı olub.

2018-ci ildə Azərbaycandan AİHM-ə 313 şikayət göndərilmişdi. Azərbaycanla bağlı 9 qərar[17] çıxarılmışdı. Həmin qərarlarda işgəncəyə məruz qalmamaq, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, səmərəli hüquq müdafiə vasitələri, hərəkət azadlığı, habelə, Konvensiyanın 18-ci maddəsinin (Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) hüququnun pozuntusu pozuntusu

2019-cu ildə Azərbaycandan AİHM-ə göndərilən şikayətlərin sayı 397 olub. Baxılmasını gözləyən şikayətlərin sayına görə, Azərbaycan 1950 şikayətlə AŞ ölkərli arasında 6-cı olub. İl

[13] https://www.echr.coe.int/Documents/Annual_Report_2014_ENG.pdf, ECHR, Annual Report, page 172
[14] https://www.echr.coe.int/Documents/Annual_report_2015_ENG.pdf, ECHR, Annual Report, page 189
[15] https://www.echr.coe.int/Documents/Annual_report_2016_ENG.pdf, ECHR, Annual Report, page 198
[16] https://www.echr.coe.int/Documents/Annual_report_2017_ENG.pdf, ECHR, Annual Report, page 170
[17] https://www.echr.coe.int/Documents/Annual_report_2018_ENG.pdf, ECHR, Annual Report, page 174

ərzində Azərbaycana qarşı 21 qərar çıxarılıb, onlardan 18-i mahiyyəti üzrə olub[18]. Qərarlarda yaşamaq, işgəncəyə məruz qalmamaq, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, seçki, şəxsi həyatın toxunulmazlığı, düşüncə, din azadlığı, ifadə azadlığı, birləşmək azadlığı, səmərəli hüquq müdafiə vasitələri, mülkiyyət hüquqlarının, habelə, Konvensiyanın 18-ci maddəsinin (Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) hüququnun pozuntusu pozuntusu təsbit edilmişdi.

2020-ci ildə Azərbaycandan AİHM-ə göndərilən şikayətlərin sayı 525 olub. AIHM 2020-ci ildə Azərbaycanla bağlı 37 qərar qəbul edib. Həmin qərarlarda 5 dəfə 2-ci, 14 dəfə 3-cü, 17 dəfə 5-ci, 21 dəfə 6-cı, 10 dəfə 8-ci, 3 dəfə 9-cu, 5 dəfə 10-cu, 3 dəfə 11-ci, 2 dəfə 13 və 14-cü, 4 dəfə 1 nömrəli protokolun 1-ci maddəsinin, 7 halda isə digər maddələrin pozuntusu tanınıb[19].
2021-ci ilin əvvəlinə olan bilgilərə görə, hazırda AİHM-də baxılmasını gözləyən şikayətlərin 3,3 faizi (2050 şikayət) Azərbaycanın payına düşür. Bu kateqoriya üzrə sıralamaya görə, Azərbaycan Rusiya, Türkiyə, Ukrayna, Rumıniya və İtaliyadan sonra 6-cı sıradadır.[20]

2021-ci ilin əvvəlinə olan bilgilərə görə, AİHM indiyə kimi Azərbaycanla bağlı mahiyyəti üzrə 215 qərar qəbul edib[21]. Dövlətin üzərinə fərdi və ya ümumi tədbirləri həyata keçirmək öhdəliyi qoyan, icra mərhələsinə transfer edilən ümumi qərarların sayı isə 287-dir[22].

## Daha çox pozuntusu tanınan hüquqlar

**Daha çox pozuntusu tanınan hüquqlar**

AİHM-in 2021-ci ilin əvvəlinə olan bilgilərinə görə, Azərbaycanla bağlı yaşamaq hüququ 15, işgəncəyə məruz qalmamaq hüququ 49, azadlıq və toxunulmazlıq hüququ 78, ədalətli məhkəmə araşdırması hüququ 112, şəxsi və ailə həyatının toxunulmazlığı hüququ 15, düşüncə, din azadlığı hüququ 4, ifadə azadlığı hüququ 11, birləşmək hüququ 37, səmərəli hüquq müdafiə vasitələri hüququ 9, mülkiyyət hüququ 38, seçki hüququ 25 qərarda tanınıb. 34 qərarda digər hüquqların pozuntusu təsbit edilir[23]. Azərbaycan bəzi hüquq pozuntuları üzrə AİHM yurisdiksiyası altında olan bütün ölkələri qabaqlayır.

***Seçki hüququ*** - AİHM Azərbaycanla bağlı 25 qərarında seçki hüququnun pozuntusunu tanıyıb. Sonrakıə yerdə pozuntunu tanıyan 17 qərarla İtaliya gəlir. Sonrakı ölkə Türkiyədəir - AİHM bu ölkəyə qarşı çıxarıdğı qərarlardan 11-də seçki hüququnun pozuntusunu tanıyıb. Bundan başqa, seçki hüququnun pozuntusu iddia edilən Rəşid Mansurov, Elçin Behduov, Həsən Kərimov, Rəsul Quliyev, İsa Qəmbər, Fuad Mustafayev, Elçin Rzayev, Eldar Namazov, Yaqub Məmmədov, Mirmahmud Fəttayev, İsmayıl Səlimov, Xaləddin İbrahimli, Solmaz Rüstəmova Azərbaycana qarşı işləri dostca anlaşma və ya təktərəfli deklarasiya təqdim olunması yolu ilə qərardan öncə həll edilib. Həmin işlərdə ərizəçilrə Nemət Əliyev Azərbaycana qarşı qərarının işığında ədalətli əvəz ödənilib, işlərin bir çoxunda hökumət seçki hüququnun pozuntusunu etiraf edib.

***Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri (Maddə 18)*** - AİHM tarixində cəmi 19 qərarında Konvensiyanın 18-ci maddənin pozuntusunu tanıyıb. Həmin qərarlardan 10-u Azərbaycana qarşı çıxarılıb. Yunusova və Yunusov Azərbaycana qarşı, Xədicə İsmayılova Azərbaycana qarşı, İbrahimov və Məmmədov Azərbaycana qarşı, Natiq Cəfərov Azərbaycana qarşı, İntiqam Əliyev Azərbaycana qarşı, Həsənov və digərləri Azərbaycana qarşı, Anar

[18] https://www.echr.coe.int/Documents/Annual_report_2019_ENG.pdf, ECHR, Annual Report, page 132
[19] https://www.echr.coe.int/Documents/Stats_violation_2020_ENG.pdf
[20] https://www.echr.coe.int/Documents/Stats_pending_2021_BIL.pdf
[21] https://www.echr.coe.int/Documents/Stats_violation_1959_2020_ENG.pdf
[22] https://rm.coe.int/168070973e
[23] https://echr.coe.int/Documents/Stats_violation_1959_2019_ENG.pdf, statistik cədvəl

Məmmədli Azərbaycana qarşı, Rəsul Cəfərov Azərbaycana qarşı, İlqar Məmmədov Azərbaycana qarşı, Əzizov və Novruzlu Azərbaycana qarşı işlərində AİHM ümumilikdə, 16 ərizəçiyə münasibətdə Konvensiyanın 18-ci maddəsinin pozuntusuna yol verilməsinə qərar verib. Yerdə qalan qərarlar Rusiyaya, Ukraynaya, Türkiyəyə, Gürcüstana və Moldovaya qarşı çıxarılıb.

***Birləşmək hüququ*** - Birləşmək hüququnun pozutuları baxımından da Azərbaycan pis göstəricilərə malikdir. Avropa Şurasına üzv olan ölkələr arasında Azərbaycan bu hüququ ən çox pozan 3 ölkədən biridir. AİHM bu hüququn pozuntusu ilə bağlı ən çox qərarı Türkiyəyə qarşı çxıarıb - 97 qərar. Rusiyaya qarşı 45 belə qərar çıxarılıb. Azərbaycan bu göstərici üzrə sıralamada 3-cüdür - 37 qərar.

## Cədvəl: AİHM-in Azərbaycanla bağlı qərarları, pozuntu statistikası

| Azerbaijan: 2002-2020 | | |
|---|---|---|
| *Yaşamaq hüququ - həyatdan məhrumetmə* | Article 2 | ***4*** |
| *Effektiv araşdırmanın olmaması* | Article 2 | ***11*** |
| *İşgəncənin qadağan edilməsi* | Article 3 | ***2*** |
| *Qeyri-insani və ya ləyaqəti alçaldan rəftar* | Article 3 | ***25*** |
| *Effektiv araşdırmanın olmaması* | Article 3 | ***22*** |
| *Şərti pozuntular* | Article 2/3 | |
| *Köləliyin/məcburi əməyin qadağan edilməsi* | Article 4 | |
| *Azadlıq və toxunulmazlıq hüququ* | Article 5 | ***78*** |
| *Ədalətli məhkəmə araşdırması hüququ* | Article 6 | ***84*** |
| *Prosesin uzunluğu* | Article 6 | ***7*** |
| *İcra edilməmə* | Article 6 | ***21*** |
| *Qanunsuz cəzalandırma* | Article 7 | |
| *Şəxsi həyatın toxunulmazlığı* | Article 8 | ***15*** |
| *Dini etiqad azadlığı* | Article 9 | ***4*** |
| *İfadə azadlığı* | Article 10 | ***11*** |
| *Birləşmək azadlığı* | Article 11 | ***37*** |
| *Nikah hüququ* | Article 12 | |
| *Səmərəli hüquqi müdafiə vasitələri hüququ* | Article 13 | ***9*** |
| *Ayrı-seçkiliyin qadağan olunması* | Article 14 | ***1*** |
| *Mülkiyyət hüququ* | P1-1 | ***38*** |
| *Təhsil hüququ* | P1-2 | |
| *Seçki hüququ* | P1-3 | ***25*** |
| *İki dəfə cəzalandırlmamaq hüququ* | P1-4 | |
| *Digər hüquqların pozuntusu* | Digər | ***34*** |

## Qərarlarla müəyyən edilən fərdi tədbirlər, təzminatlar

AİHM-in Azərbaycana qarşı 2006-cı ildə qəbul etdiyi ilk qərar ərizəçi F.Hacıyevə mənəvi ziyana görə 3 min, məhkəmə xərclərinə və digər məsrəflərə görə 2 min 500 yüz avro təzminat ödənilməsini nəzərdə tuturdu. Həmin il təzminat öhdəliyi doğuran başqa qərar qəbul edilməmişdi.

2007-ci ildə AİHM-in qərarlarında ərizəçilərə ödənilməsi müəyyən edilən təzminatın ümumi məbləği 22 min 467 avro olub. 2008-ci ildə qərarlarla müəyyən edilən təzminatın məbləği bir qədər yüksək olub - 30 min 745 avro. 2009-cu ildə qəbul edilən qərarlar üzrə təzminat məbləği təxminən eyni idi - 30 725 avro.

2010-cu ildə AİHM-in Azərbaycan üzrə çıxardığı qərarlarda ərizəçilərə ödənilməsinə qərar verilən məbləğ 10 dəfə artdı. Həmin il Azərbaycanla bağlı 12 qərar üzrə 334 min 602 avro təzminat məbləğinin ödənilməsi qət edilmişdi. 2010-cu ildən sonra təzminatların məbləğində adətən, artım müşhidə olunur.

2011-ci ildə AİHM-in Azərbaycanla bağlı qərarlarında ərizəçilərə ümimilikdə, 310 min 650 min avro məbləğində ədalətli əvəzin ödənilməsi nəzərdə tutulmuşduş. 2012-ci il üzrə çıxarılan qərarlarda bu məbləğ 308 min 805 avro, 2013-cü ildə 293 min 344 avro, 2014-cü ildə isə 289 min 583 avro, 2015-ci ildə 311 min 950 avro təşkil edib.

2016-cı ildə AİHM-in Azərbaycanla bağlı qərarları ilə müəyyən edilən təzminatın ümumi məbləği 2 dəfədən çox artıb. Həmin il təzminatın ümumi məbləği 815 min 146 avro olub. Sonrakı 2017-ci ildə isə AİHM qərarları ilə Azərbaycanın üzərinə ərizəçilərə 817 min 451 avro təzminat ödəmək öhdəliyi qoyulub. 2018-ci ildə təzminat məbləği 186 min 972 avro-ya qədər azalıb.

2019-cu ildə AİHM-in Azərbaycanla bağlı qərarları ilə müəyyən edilən təzminatın ümumi məbləği 707 min 010 avro təşkil edib. 2020-ci ildə bu məbləğ 803 min 726 avro olub.

AİHM qərarları ilə 2006-2020-ci illər ərzində Azərbaycana qarşı müəyyən edilən təzminatın ümumi məbləği 5 milyon 268 min 676 avro təşkil edib.

AİHM-in Azərbaycanla bağlı qərarlarında Ərizəçilərə ədalətli əvəzin (təzminat) ödənilməsindən başqa fərqli fərdi tədbirlərin görülməsi öhdəlikləri də nəzərdə tutulub. Bu tədbirlər daha çox mübahisələndirilən məhkəmə qərarlarının icra edilməsini, mülkiyyətinin ərizəçiyə geri verilməsini nəzərdə tutur. Qeyd edilənlərdən əlavə, AİHM iki işdə ədalətsiz məhkəmə qərarı nəticəsində azadlıqdan məhrum edilmiş şəxsin dərhal azadlığa buraxılmasına qərar verib. Fətullayev Azərbaycana qarşı, Məmmədov Azərbaycana qarşı işi bu qəbildəndir.

***AİHM qərarları ilə müəyyən edilən "Ümumi tədbirlər" haqqında bundan sonrakı bölmədə ətraflı bilgi təqdim edilir.***

**5-ci bölmə - Qərarların icrası: 2002-2021**

**İcradakı qərarlar – illər üzrə ümumi bilgilər, icranın ümumi mənzərəsi**
**Qərarlarının icrasına dövlət büdcəsindən ayrılan vəsaitlər**
**İşlərə Ali Məhkəmədə yenidən baxılması**
**İcrası qapadılmış qərarlar**
**İcrası davam edən işlər**

## İcradakı qərarlar – illər üzrə ümumi bilgilər, icranın ümumi mənzərəsi

AIHM-in Azərbaycanla bağlı çıxardığı qərarların icrası ilk qərar icraya daxil olandan bəri problemli olub. İcradakı problemlər həm fərdi, həm də ümumi tədbirlərlə bağlıdır.

2007-ci ildə Azərbaycanla bağlı 3 aparıcı iş icra mərhələsində olub. Həmin işlər üzrə fərdi tədbirlər - ədalətli əvəzin ödənilməsi 67 faiz vaxtına icra edilmişdi. 2008-ci ildə icrada ümumilikdə, 13 qərar var idi. Həmin işlərin 9-u aparıcı, 4-ü təkrarlanan və ya izolə edilmiş iş idi. Maddi təzminatların ümumilikdə 25 faizi vaxtında ödənilmişdi. Ədalətli əvəzin yerdə qalan 75 faizi ya ödənilməmişdi, ya da hökumət ödənişlər barəsində AŞ NK-nı bilgiləndirməmişdi. 2009-ci ildə icra mərhələsində 16 iş olub. Həmin il icraya daxil olan 3 qərar üzrə fərdi tədbirlər 50 faiz vaxtında həyata keçirilmişdi. 2010-cu ildə icrasını gözləyən işlərin sayı 31-ə çatdı. Həmin il fərdi tədbirlərin heç biri vaxtıdan icra edilməyib. Yalnız 4 işdə ədalətli əvəz vaxt keçdikdən sonrakı 6 ayda ödənildi.

2011-ci ildə Azərbaycanla bağlı daha 14 aparıcı, 3 təkrarlanan iş icraya göndərilmişdi. Həmin işlərdən 9-da maddi təzminatlar vaxtında ödənilib. 2011-ci ilin sonunda icrada ümumilikdə, 45 aparıcı, 24 digər iş olub. 2012-ci ildə onların üzərinə daha 19 yeni iş əlavə olunub. Yeni 8 işdə ödəniş vaxtında edilib. 2013-cü ildə icraya daha 19 iş daxil olub. Həmin il AİHM-in Azərbaycanla bağlı çıxardığı qərarlardan birinin icrasının qapadılmasına qərar verilib. Bu iş Azərbaycanla əlaqəli icrası qapadılan ilk iş idi.

2014-cü ildə icraya 33 yeni iş daxil olub. Həmin işlərdən 4-də təzmiantlar vaxtında icra edilib. 2014-cü ilin sonunda Azərbaycanala bağlı ümumilikdə, 42-si aparıcı olmaqla 114 qərar icrasını gözləyirdi. 45 qərarın icrası genişləndirilmiş, 52 qərarın icrası standart nəzarət altında idi. Digər qərarların nəzarət qaydası təsnifləndirilməmişdi. Həmin ilin göstəricilərinə görə, 56 işdə ədalətli əvəzin ödənilməsi gözlənilirdi.

2015-ci ildə 34 yeni qərarın icrası nəzarətə götürülüb. İcrada olan qərarların ümumi sayı 147 idi. 54 qərarın icrasına genişlnidirlmiş, yerdə qalanlara standart qaydada nəzarət edilirdi. 2015-ci ildə daha bir qərarın icrasına nəzarət qapadılıb. 2016-cı ildə 21 yeni qərarla icradakı işlərin sayı 168-ə çatıb. 86 iş üzrə təzminatın ödənilməsində problemlər mövcud olub – ya ödəniş edilməyib, ya da ödənişlə bağlı AŞ NK bilgiləndirilməyib. 2017-ci ildə icrası gözlənilən qərarların sayı 197-ə çatıb. Həmin işlərin 54-ü aparıcı, 143-ü isə təkrarlanan işlər idi. 96 qərarın icrası genişləndirilmiş nəzarət altında idi. 115 qərar üzrə ödənişlər haqqında məlumatların təqdim edilməsi gözlənilirdi. 95 işdə təzminatların ödəniş vaxtından 6 aydan artıq vaxt keçmişdi.

2018-ci ildə Azərbaycanla bağlı 18 qərarın icrasına nəzarət qapadılıb. Həmin ilin sonunda icradakı qərarların ümumi sayı 186 olub. 54-ü aparıcı, 131 təkrarlanan iş icrasını gözləyirdi. 101 qərar genişləndirilmiş nəzarət altında idi. 2018-ci ilin bilgilərinə görə, icradakı bütün işlərin 4.5 faizi Azərbaycanın payına düşürdü. 2019-cu ildə 19 yeni qərarın icrasına nəzarət proseduru başlanılmışdı. 16 qərarın icrasına nəzarətin qapadılmasından sonra icrada mərhələsində olan

Azərbaycanla bağlı qərarların cəmi sayı 189 idi. Onlardan 155-i təkrarlanan, 34-ü isə aparıcı işlər idi. 95 qərarın icrası genişləndirilmiş nəzarət altında idi.

2019-cu ildə AİHM-in Azərbaycanla bağlı çıxardığı 16 qərarın icrasına nəzarət qapadılıb. 2020-ci ildə isə icrası başa çatan işlərin sayı 6 olub.

2021-ci ilin əvvəlinə olan bilgilərə görə, Azərbaycanla bağlı ümumilikdə, 235 qərar icrasını gözləyir. Həmin qərarlardan 45-i aparıcı, 190-ı isə təkrarlanan işlərdir. İcrasını gözləyən aparıcı işlərdən 20-si gücləndirilmiş, digərləri standart nəzarət altındadır. AŞ NK təkrarlanan 190 işdən 91-nin icrasına gücləndirilmiş, digərlərinə standart qaydada nəzarət edir.

AŞ NK-nın 2021-ci ilin oəvvəlinə olan statistik bilgilərinə görə, indiyə kimi AİHM-in Azərbaycanla bağlı 287 qərarı icra mərhələsinə göndərilib. Həmin qərarlar dövlətin üzərinə fərdi və ümumi tədbirlərin görülməsi öhdəliyi qoyur. Azərbaycan həmin qərarların 43-nü icra edib[24], AŞ NK həmin qərarların icrasına nəzarətin qapadılmasına qərar verib.

2020-ci ildə icra mərhələsində olan 6 qərar üzrə təzminatlar vaxtında ödənilib. 18 işdə təzminatlar ödənilib, ancaq ödənişlər vaxtında edilməyib. 2020-ci ilin sonunda təzminatların ödənilməsi gözlənilən işlərin sayı 69 olub. Həmin işlərdən 35-də təzminatlar 6 aydan çoxdur ki, yubanır.

## Qərarlarının icrasına dövlət büdcəsindən ayrılan vəsaitlər

Avropa Məhkəməsinin 2007-2019-cu illərdə Azərbacyan üzrə çıxardığı qərarlar üzrə ərizəçilərə 4.5 milyon avro məbləğində təzminat ödənilməsi nəzərdə tutulub. Hər il Azər baycan Respublikasının dövlət büdcəsində AİHM üzrə xərclərə həsr olunan vəsait ayrılır. Büdcədə nəzərdə tutuilan vəsait yalnız qərarların icrası, təzminatların ödənilməsi ilə bağlı deyil. Büdcədə nəzərədə tutulan vəsait "AİHM qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası" üçün ayrılır. Dolayısı ilə büdcədə nəzərdə tutulan vəsait AİHM yanında AR-nın səlahiyyətli nümayəndəsinin, nüamyəndəliyin xərclərini də əhatə edir. Vəsait Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına ayrılır və qeyd edilən istiqamətdə xərclənir.

2007-2019-cu illərdə Azərbaycan Respublikasının dövlət büdcəsindən "AİHM qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası" üçün ayrılan vəsaitin ümumi məbləği 15 milyon manatadan artıq olub.

2007-ci ildə dpvlət büdcəsindən bu istəqamətə ümumilikdə, 1 milyon 3 min 200 manat ayrılıb. 2008, 2009-cu illərdə AİHM qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrasına eyni məbləğdə vəsait ayrılıb.

2010-cu ildə ayrılmış vəsaitin məbləği 802 min 560 manat, 2011-ci ildə isə 953 min 40 manat olub. 2007-2009-cu illərdə olduğu kimi 2012, 2013, 2014-cü illərdə də dövlət büdcəsindən bu istəqamətə 1 milyon 3 min 200 manat ayrılıb.

2015-ci ildə ayrılan vəsaitin məbləği 732 min 336 manat təşkil edib. 2016-cı ildə dövlət büdcəsindən bu istiqamətə ayrıca, vəsait ayrılmayıb. Həmin vəsait Azərbaycan Prezidentinin Administrasiyasına ayrılan vəsaitlərə daxil edilib.

---

[24] https://rm.coe.int/168070973e

AİHM qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrasına 2017-ci ildə 1 milyon 3 min 200, 2018-ci ildə 2 milyon 6 min 400, 2019-cu ildə isə 4 milyon 861 min 298 manat ayrılıb. 2020-ci il üçün ayrılan vəsaitin məbləği 3 milyon 989 min 67 manat olub.

## İşlərə Ali Məhkəmədə yenidən baxılması

AR Ali Məhkəməsinin bilgilərinə görə, AİHM qərarları ilə yaranan yeni hallar üzrə işlərə bu məhkəmədə baxılmasına 2009-cu ildə başlanılıb. AİHM qərarları milli məhkəmə aktlarına yeni hallar üzrə baxılması üçün əsaslardan biri hesab edilir. Belə durumlarda iə Ali Məhkəmnin Plenumunda baxılır.

2009-cu ildə Ali Məhkəmənin Plenumu AİHM qərarları üzrə 5 mülki işə yenidən baxıb. AM-nin Plenumu həmin işlərdən 2-də kassasiya instansiyasının qərarlarını ləğv edib, işi yenidən baxılması üçün apellyasiya baxışına göndərib. Digər 3 işdə isə Plenum qərar verib ki, bu işlərə yenidən baxılmasına zərurət müəyyən edilməyib. 2009-cu ildə Ali Məhkəmənin Plenumu AİHM qərarlarına əsasən, 1 cinayət işinə baxıb. Həmin işdə kassasiya və apellyasiya instansiyalarının qərarları ləğv edilib. İş yenidən baxılması üçün apellyasiya instansiyasına göndərilib. Həmin il Ali Məhkəmənin Plenumu AİHM qərarlarına əsasən, hərbi cinayətlərlə əlaqədar olan 1 işə baxıb. Həmin işə yenidən baxılmasına zərurət olmaması barədə qərar verilib.

2010-cu ildə Ali Məhkəmənin Plenumu AİHM qərarlarına əsasən, yeni hallar üzrə ümumilkdə, 5 işə baxıb. Həmin işlərdən 1-i mülki iş olub. Plenum qərar verib ki, işə yenidən baxılmasına zərurət meəyyən edilməyib. 4 cinayət işində məhkəmə qərarları ləğv edilib, iş yenidən baxılması üçün yeni məhkəmə baxışına göndərilib.

Ali Məhkəmnin Plenumu 2011-ci ildə AİHM qərarlarına əsasən, yeni hallar üzrə ümumilikdə, 5 işə baxıb. İşlərdən 3-ü mülki işlər olub. Plenum həmin işlərdən birində məhkəmə qərarlarını ləğv edib, işi yenidən baxılması üçün apellyasiya instansiyasına göndərib. 2 işdə yenidən baxılmaq üçün zərurət olmadığı haqda qərar verilib. Ali Məhkəmənin Plenumu 2011-ci ildə AİHM qərarlarına əsasən, baxdığı 2 işdə məhkəmə qərarlarını ləğv edib. İş baxılması üçün apellyasiya instansiyasına göndərilib.

2012-ci ildə isə Ali Məhkəmnin Plenumu AİHM qərarlarına əsasən, yeni hallar üzrə cəmi 2 işə baxılıb. Mülki işdə Pelnum məhkəmə qərarlarını ləğv edib və işi yenidən baxılması üçün apellyasiya instansiyasına göndərib. Cinayət işində isə Plenum kassasiya instansiyasının qərarını ləğv edib. İş baxılamsı üçün yeni kassasiya baxışına göndərilib.

2013-cü ildə AİHM qərarlarına əsasən yeni hallar üzrə baxılmış işlərin sayı 5 olub. Plenum 2 mülki işə baxıb və hər iki işdə kassasiya və apellyasiya instansiyalarının qərarları ləğv edilib. Həmin işlər yenidən baxılması üçün yeni apellyasiya baxışına göndərilib. Ali Məhkəmənin Plenumu 3 cinayət işində də kassasiya və apellyasiya instansiyalarının qərarlarını ləğv edib, işləri yenidən baxılması üçün yeni apellyasiya baxışına göndərib.

2014-15-ci illərdə Ali Məhkəmənin Plenumunda Avropa Məhkəməsinin qərarına əsasən, 2 cinayət işinə baxılıb. 2014-cü ildə baxılan işdə bütün məhkəmə qərarları ləğv olunub və iş yenidən baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinin hazırlıq iclası mərhələsinə göndərilib. 2015-ci ildə baxılmış cinayət işində isə kassasiya və apellyasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, iş yeni apellyasiya baxışına göndərilib. 2016-17-cı illərdə AİHM qərarlarına əsasən, yeni hallar üzrə işlərə baxılması haqda məlumat verilməyib.

AİHM qərarlarına əsaslanan yeni hallar üzrə Ali Məhkəmənin Plenumuna sonuncu iş (haqqında məlumat verilən) 2018-ci ildə çıxarılıb. Həmin cinayət işində kassasiya və apellyasiya instansiyasının qərarları ləğv olunub, iş yeni apellyasiya baxışına göndərilib.

Ali Məhkəmənin illik hesabatına görə, 2019-cu ildə AİHM qərarlarına əsasən, heç bir işə baxılmayıb.

2021-ci ilin yanvar ayına qədər olan bilgilərə görə, Ali Məhkəmnin Plenumu AİHM qərarlarına əsasən yeni hallar üzrə ümumilikdə, 28 işə baxıb. Həmin işlərin 12-si mülki iş, 16-sı cinayət işi olub. Qeyd edilən işlər üzrə qərarların əksəriyyətində kassasiya və apellyasiya instansiyalarının qərarları ləv edilib, işlər yenidən baxılması üçün göndərilib. Ali Məhkəmənin Pelnumu mülki işlərin əksəriyyətində onlara yenidən baxılmasına zərurət olmaması qənaətinə gəlib.

Ali Məhkəmə bəhs edilən işlər barədə yalnız statistik bilgiləri açıqlayır. İnformasiyalara çatım qanunvericiliyinə görə, bütün məhkəmə qərarları açıq olmalı, hər kəsin onlara çatımı üçün məhkəmələrin saytlarına daxil edilməlidir. Ancaq bəhs edilən qərarlara çatım mümkün deyil. Həm də hansı işlərə baxılması barədə bilgi verilmir. Apellyasiya instansiyasına qaytarılan işlərə baxılıb-baxılmaması, baxılıbsa, hansı qərarların verilməsi barədə gərəkli bilgilər açıqlanmayıb.

## İcrası qapadılmış qərarlar

AŞ NK AİHM-in Azərbaycanla bağlı çıxardığı qərarlar üzrə ilk olaraq, Səfərəli Cəfərli və digərləri (Validə Bağırzadə, Elçin Cəfərov) Azərbaycana qarşı işinin icra edilmiş sayılmasına qərar verib. 2010-cu ildə qəbul edilmiş sözügedən qərar ədalətli məhkəmə araşdırması və mülkiyyət hüququnun pzountusu, yerli məhkəmə qərarlarının icrasının yubanması ilə bağlı idi. Yerli məhkəmə qərarları icra edildiyindən, AŞ NK 2012-ci ildə bu qərarın icrasına nəzarətin qapadılmasına qərar verib.

İcrası qapalı elan ediİın növbəti qərar Ruslan Əliyev Azərbaycana qarşı işi üzrədir. Bu iş məhkəməyə qədər həbsin qanunsuzluğu ilə bağlı idi. Tərəflər dostca anlaşmışdılar. Ərizəçiyə ədalətli əvəz ödənilməli idi. Qərarın icrası 2015-ci ildə qapadılmış elan edilib.

AŞ NK növbəti dəfə AİHM-in Azərbaycnala bağlı qəbul etdiyi qərarların icrasının qapadılması məsələsinə 2018-ci ildə baxıb və 15 qərarın icrasının qapadılmasına qərar verib. Bu işlər ədalətli məhkəmə araşdırması və mülkiyyət hüququnun pozuntusu ilə bağlı idi. Tərəflər 2015-ci ildə ərizəçilərə 3000-7500 avro məbləğində ədalətli əvəzin ödənilməsi şərti ilə dostca anlaşmışdılar. Anlaşma icra edildiyindən, qərarların icrasına nəzarət qapalı elan oldundu.

AŞ NK seçki hüququnun pozuntusu ilə bağlı olan 3 qərarın icrasına nəzarəti də 2018-ci ildə qapadıb. Behbudov, Kərimov və Mansurov Azərbaycana qarşı işlərində tərəflər dostca anlaşmışdılar. Anlaşmanın şərtlərinə əməl edildiyindən, qərarların icrasına nəzarət qapadıldı.

AŞ NK 2019-cu ildə Axundov işi Qrupu üzrə icraya nəzarətin qapadılmasına qərar verib. Axundov işi qrupu çərçivəsində ümumilikdə 13 qərarın icrasına nəzarət edilirdi. Bu məhkəmə qərarları müxtəlif öhdəlikləri nəzərdə tutan milli məhkəmə qərarlarının icra edilməməsi ilə bağlı idi. AŞ NK ədalətli əvəz ödənildiyindən, milli məhkəmə qərarlarının hamısı icra olunduğundan, ərizəçilərin pozulmuş mülkiyyət hüquqları bərpa edildiyindən qərarların icrasına nəzarəti qapatmağa qərar verdi. Ancaq eyni zamanda qərar verildi ki, bu qərarlar üzrə ümumi tədbirlərin həyata keçirilməsində çatışmazlıqlar var. Həmin çatışmazlıqlara nəzzarət Mirzəyev, Humbatov və Tarverdiyev qrup işləri çərçivəsində davam etdiriləcək.

2019-cu ildə Akimova Azərbaycana işi üzrə qərarın icrası da qapadılıb. Bu qərar mülkiyyət hüququnun pozuntusu - ərizəçinin mənzilinin zəbt edilməsi ilə bağlı idi. Tərəflər dostca anlaşmışdılar. Ərizəçiyə mənəvi zərər, habelə xərc və məsrəflərin ədalətli əvəzi ödənilmiş, mülkiyyət hüququna müdaxilə aradan qaldırılmılşdı. Bu qərarın icrası kontekstində nəzərdə tutulan ümumi tədbirlərin icrasına Mirzəyev qrupu çərçivəsində nəzarət davam etdiriləcək.

2019-cu ildə icrası başa çatdırılan növbəti iş Rəhmanova Azərbaycana qarşı işi olub. Bu iş mülkiyyət və ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu ilə bağlı idi. Qərarın icrası üzrə fərdi və ümumi tədbirlər icra edildiyindən AŞ NK icranın qapadılmasına qərar verib.

AİHM-in Azərbaycanla bağlı mahiyyəti üzrə 2006-cı ildə qəbul etdiyi ilk qərarın icrası da 2019-cu ildə başa çatdırılıb. Fəhmin Hacıyev Azərbaycana qarşı işi ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu ilə bağlı idi. Qərarın icrası çərçivəsində ədalətli əvəz ödənilməsi, qanunvericiliyin yanlış tətbiq edilməsi təcrübəsinin aradan qaldırılması üçün ümumi tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu. Fərdi tədbirlər həyata keçirilib. Ancaq ərizəçi AİHM qərarı ilə müəyyən edilən pozuntulara söykənərək, məhkum edilməsinin yenidən araşdırlmasını tələb etməyib. AŞ NK qərarın icrasına nəzarətin qapadılmasına qərar verib.

2020-ci ildə İ.Məmmədov Azərbaycana qarşı, Rəsul Cəfərov Azərbaycana qarşı işləri üzrə qərarların icrası qapadılıb. Bu qərarlar ərizəçilərin aktiv ictimai-siyasi iştirakçılıqlarına, hökuməti tənqidə, insan hüquqları izləmə sahəsində fəaliyyətlərinə görə Konvensiyanın 18-ci maddəsinə zidd olaraq məhkəməyə qədər həbs edilmələri və azadlıqdan məhrum olunmaları ilə bağlı idi. Azərbaycan Ali Məhkəməsi aprel ayında hər iki işi yeni açılmış hallar üzrə araşdırıb, hər iki ərizəçiyə bəraət verilməsinə, onlara dəymiş maddi-mənəvi ziyana görə təzminat ödənilməsinə qərar verib. Ali Məhkəmənin həmin qərarlarının ardınca, AŞ NK hər iki qərarın icrasına nəzarəti qapadıb.

## İcrası davam edən işlər

AİHM-in Azəbaycanla bağlı çıxardığı 230-dan artıq qərarın icrası nəzarət altındadır. Həmin qərarların icrasına 20 qrup işi çərçivəsində nəzarət edilir.

***Yaşar Ağazadə Qrup işinə*** Mahmudov və Ağazadə Azərbaycana qarşı və E.Fətullayev Azərbaycana qarşı qərarları daxildir. Bu qərarlar böhtana görə azadlıqdan məhrumetmə cəzasının əsassız tətbiq olunması və bəzi ifadələrin böhtan məzmunlu olmasını əsaslandırmaq üçün yetərli olmayan səbəblərin göstərilməsi və ifadələrə görə cəzalandırmaq üçün antiterror qanunvericiliyinin özbaşına tətbiq edilməsi ilə əlaqəlidir. Qərarlar üzrə fərdi tədbirlərə nəzarət qapadılıb. Çünki, hər iki işdə ərizəçilər azadlığa buraxılıblar və ədalətli əvəz ödənilib. Nəzardə tutulan 3 əsas ümumi tədbir icrasını gözləyir. Həmin tədbirlər defamasiya haqqında qanunvericiliyin adekvatlığının təmin edilməsini, Qanunvericiliyin özbaşına tətbiq edilməsinin qarşısının alınmasını, Baş Prokurorluq və digər rəsmilər tərəfindən təqsirsizlik prezumpsiyası hüququnun pozulmasının qarşısının alınmasını hədəfləyir.

***Mirzəyev Qrupu, Humbətov Qrupu və Tarverdiyev Qrupu işləri*** milli məhkəmə qərarlarının icrası ilə əlaqəlidir. İcra edilməmiş milli məhkəmə qərarları 3 müxtəlif növ öhdəlik doğurandır.
Mirzəyev işi qrupuna məcburi köçkünlər tərəfindən ərizəçilərin qanunsuz zəbt edilmiş əmlaklarının sahiblərinə verilməsini nəzardə tutan qərarlar daxildir. Bu qrupda 18 qərarın icrası nəzarət altındadır[25]. Humbətov işi qrupuna daxil olan işlər ərizəçilərə məxsus torpaq

[25] https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=0900001680942057

sahələrindən istifadə hüquqlarının bərpası kimi mülkiyyət hüquqlarına dair yerli məhkəmə qərarları ilə əlaqəlidir. Bu qrupda 4 qərarın icrasına nəzarət edilir. Tarverdiyev işi qrupuna daxil olan işlər ərizəçilərin əvvəlki iş yerlərinə bərpa edilməsini nəzərdə tutan qərarlarla bağlıdır. Bu qrupda da 4 qərarın icrasına nəzarət edilir. AİHM sözü gedən qruplara daxil olan qərarlarında qeyd edib ki, cavabdeh dövlət icrasını gözləyən yerli məhkəmə qərarlarının icrasını "uyğun vasitələrlə" təmin etməlidir.

Qeyd edilən qruplara daxil edilən 26 qərar üzrə təzminatların ödənilməsi böyük ölçüdə həyata keçirilib. Yalnız iki qərar üzrə (İslamzadə və Digərləri Azərbaycana qarşı, Ramixanov və Digərləri Azərbaycana qarşı) təzminatın ödənilməsi problemlidir.

Mirzəyev işi qrupunda 11 işdə daxili məhkəmə qərarlarının icrası təmin edilib. Humbətov işi qrupunda bir işdə hökumət və ərizəçi arasında döstca anlaşma qərarı verilib və bunun nəticəsində daxili məhkəmə qərarının icrası tələbi geri götürülüb. Digər üç işdə icra davam edir. Tarverdiyev işi qrupundakı 4 işdən 2-də fərdi tədbirlərin görülməsi məsələsi həll olunub. Ərizəçilər daxili məhkəmələrin qərarları ilə əvvəlki vəzifələrinə bərpa olunublar. Digər iki işin (Tarverdiyev, Dəmirovun işi) icrası davam edir.

Qeyd edilən 3 qrup işlərində nəzərdə tutulan ümumi tədbirlər məcburi köçkünlər tərəfindən zəbt edilmiş əmlakın sahiblərinə geri verilməsini, ərizəçilərlə eyni hüquqi vəziyyətdə olanlar üçün effektiv müdafiə vasitələrinin tətbiq edilməsini, lazımi kompensasiyaların verilməsi mexanizminin təmin olunmasını nəzərdə tutur. Habelə, icra edilməsi mümkün olmayan məhkəmə qərarları ilə bağlı *restitutio in integrum* əldə edilməsi üçün uyğun təzminat verilməsi mexanizminin yaradılmasını kimi məsələləri əhatə edir.

***Avşarova Qrupu işində*** 40 qərarın icrası nəzarət altındadır. Bu qərarlar da mənzilləri zəbt edilmiş ərizəçilərin xeyrinə çıxarılan milli məhkəmə qərarlarının icrası ilə bağlı dostca anlaşmaları əhatə edir. Həmin anlaşmalar milli məhkəmlərin qərarlarının icrası və təzminat ödənilməsi öhdəliklərini əhatə edir. Hökumət icra ilə bağlı fəaliyyət planı tədqim etməyib.

***Nemət Əliyev Qrupu işi*** AİHM-in 23 qərarının icrasını əhatə edir. Bu qrup 2005 və 2010-cu ildə keçirilmiş parlament seçkiləri kontekstində müxalifət partiya üzvlərinin və ya müstəqil namizədlərin azad seçki hüquqlarının pozuntusu (Konvensiyanın 1 saylı Protokolun 3-cü maddəsi) ilə əlaqəlidir. Bu qrupa daxil olan məhkəmə işlərinin əksəriyyətində AİHM müəyyən etdi ki, seçki komissiyaları və daxili məhkəmələr, o cümlədən, Konstitusiya Məhkəməsi özbaşına olaraq, əsaslandırma olmadan və ya qanunvericiliyin özbaşına tətbiqinə qarşı təminat verməyən prosedurlar vasitəsilə, seçki qanunvericiliyi yanlış tətbiq edilib, pozuntularına qarşı şikayətlər əsassız rədd olunub. AİHM seçki komissiyalarının qərarları ilə bağlı özəlliklə, aşağıdakı pozuntuları müəyyən edib:
- Ərizəçilərin şikayətlərinin və təqdim etdikləri dəlillərin heç bir əsaslandırma aparılmadan rədd edilməsi;
- Ərizəçilərin əleyhinə olan şahid ifadələrinin və izahatların, onların doğruluğunun və mötəbərliyinin müəyyənləşdirilməsi üçün müstəqil ekspertizadan keçirilmədən qəbul edilməsi;
- ərizəçilərin namizəd kimi qeydiyyata alınmalarını və ya seçilmələrini ləğv edən qərarların müstəqil ekspertiza keirilmədən və əsaslandırlmadan qəbul edilməsi;
- ərizəçilərin bu qərarları verən komissiyalardakı dinləmələrdə iştirakının təmin edilməməsi.

Bu qrupa daxil olan Qəhrəmanlı və digərləri Azərbaycana qarşı işdə AİHM qeyd edib ki, namizədlər tərəfindən verilmiş fərdi şikayətlərin araşdırılmasının effektivliyini artırmaq məqsədilə cavabdeh Dövlət seçki komissiyalarının struktural tərkibinə dair islahat keçirilməsi yönündə təşviq edilməlidir.

Yerli məhkəmələrin qərarları ilə əlaqədar olaraq Məhkəmə xüsusilə, müəyyən edib ki: təqdim edilmiş dəlillərin araşdırılmasından imtina olunması, mübahisə doğuran məsələlərin

aydınlaşdırılması üçün xidməti vəzifəsinə uyğun olaraq tədbirlər görülməməsi və araşdırma prosedurunun formal xarakter daşıması; seçki komissiyalarının gəldiyi nəticələrinin məhkəmələrdə olduğu kimi avtomatik təkrar olunması; ərizəçilərin öz müdafiələrini hazırlamaq üçün yetərli zamana sahib olmaması; seçki qanunvericiliyinin yanlış tətbiq edilməsi.

Bu qrupa daxil olan 6 işdə isə AİHM, 2014-cü ilin avqust ayında ərizəçilərin qanuni nümayəndəsinin ofisindən bütün digər sənədlərlə birlikdə iş sənədlərinin də götürülməsinə görə, fərdi müraciət etmək hüququnun pozuntusuna yol verildiyini də müəyyən edib.

Bu qrupa daxil olan işlərdə fərdi tədbirlər - ədalətli əvəzin ödənilməsi (4 iş istisna olmaqla) tam həyata keçirilib.

Bu qrup işinə daxil olan qərarların icrası ilə bağlı ümumi tədbirlərə gəldikdə, 2018-2021-ci illər üzrə fəaliyyət planı seçki islahatlarının, özəlliklə, namizədlərin qeydiyyatı, seçki komissiyalarının tərkibi, müşahidəçilərin hüquqları, şikayət və müraciətlər üzrə prosedurları, həmçinin partiyaların maliyyələşdirilməsinin şəffaflığı kimi prioritet məsələləri - seçki qanunvericiliyi və təcrübəsinin Avropa Konvensiyasının tələblərinə tam və effektiv şəkildə uyğunlaşdırılmasını əhatə edir. AŞ NK bu qrup işini vaxtaşırı müzakirə edir və əksər qətnamələrində Azərbaycan hökumətinin ümumi tədbirlərlə bağlı gərəkli bilgiləri təqdim etmədiyini ifadə edib.

***Qafqaz Məmmədov Qrupu işinə*** daxil olan qərarlar 2010-2014-cü illərdə siyasi müxalifət tərəfindən planlaşdırılıb, təşkil edilən, ictimai asayiş baxımından heç bir təhlükə doğurmayan icazəsiz dinc etiraz aksiyalarının dağıdılması və ərizəçilərin sərbəst toplaşmaq azadlığına çoxsaylı müdaxilələrin baş verməsi, onların qısa müddətə həbs edilmələri və nümayişdə iştirak etmələrinə görə inzibati qaydada həbs olunmaları ilə bağlıdır. Bu qrup işi çərçivəsində AİHM-in 21-dən artıq qərarının icrası nəzarət altındadır. AİHM həmin qərarlarında ictimai toplantıları düzənləyən qanunvericiliyin dəqiq olmaması və toplantıların dağıdılmasına imkan verməsi, ictimai toplantıların qeyri-qanuni şəkildə qadağan edilməsi ilə bağlı ciddi əndişələrini ifadə edib. Xüsusilə, vurğulayıb ki, Azərbaycan Konstitusiyası planlaşdırılan hər hansı bir toplantı ilə bağlı yalnız məlumatlandırma prosedurunu ehtiva edir. “Sərbəst toplaşmaq azadlığı haqqında” qanunsa, müvafiq yerli icra hakimiyyəti orqanlarına toplaşmağı yasaqlamaq, qarşısını almaq üçün geniş səlahiyyətlər verir. Bundan əlavə, Qanun, müvafiq yerli icra hakimiyyəti orqanlarına kütləvi yığıncağın keçiriləcəyi məkanı, marşrutu və ya onun vaxtını məhdudlaşdırmaq və ya dəyişdirmək, toplaşmaq üçün müəyyən ərazilər təyin etmək səlahiyyəti verir. AİHM bu qərarlarında vurğulayıb ki, ərizəçilərin sərbəst toplaşmaq azadlığına dözümlü və vicdanla yanaşmalı olan əlaqəli qurumların həyata keçirdiyi müdaxilə tədbirlərini əsaslandırıran səbəblər uyğun və tələb olunduğu ölçüdə olmayıb, sanksiyalar qeyri-mütənasib olub. AİHM-in bu qərarlardakı görüşünə görə, belə tədbirlər ərizəçilərin gözünü qorxutmamaqla yanaşı, digər müxalifət tərəfdarlarını və geniş ictimaiyyəti nümayişlərə qatılmaqdan, açıq siyasi müzakirələrdə daha geniş iştirakdan çəkindirməməlidir.

Bu qrupa daxil olan işlərin əksəriyyətində fərdi tədbirlərə əməl edilib – AİHM qərarları ilə müəyyən edilən təzminatlar ödənilib.

Qrup işinə daxil olan qərarlarda ümumi tədbirlər olaraq, yığıncaqlar, ictimai tədbirlər haqqında yerli qanunvericiliyin Avropa Konvensiyanın 11-ci maddəsinin tələblərinə uyğun gəlməməsindən doğan mürəkkəb problemlər müəyyən edilib. Qərarlarda polislər, yerli qurumlar və əlaqəli məhkəmələr tərəfindən qanunların özbaşına tətbiq edilməsi vurğulanmaqdadır. Bu qrup işinin ortaya çıxardığı ümumi problemlər müxtəlif zəruri islahatların həyata keçirilməsini təmin etməklə, təcili tədbirlərin həyata keçirilməsini tələb edir. AŞ NK bu qrup işi ilə bağlı qətnamələrində Azərbaycan hökuməti tərəfindən fəaliyyət planı ilə bağlı gərəkli bilgilərin təqdim edilmədiyi ifadə edilib.

***Qarayev Qrupu işi*** ekstradisiya məsələləri ilə bağlıdır. Bu qrup çərçivəsində 3 qərarın icrasına nəzarət edilir. Qarayev Azərbaycan qarşı işi ərizəçinin işgəncələrə, qeyri-insani və ya alçaldıcı rəftara və ya cəzaya məruz qala biləcəyi halda Özbəkistana ekstradisiya edilməsi ilə bağlıdır. AİHM bu işdə müəyyən edib ki, işgəncə və ya pis rəftar riski zəmnində ekstradisiya edilməyə etiraz etmək üçün effektiv daxili müdafiə vasitələri mövcud deyil. Belə ki, ərizəçi ekstradisiya edilənə qədər Konvensiyanın uyğun hesab etdiyi keyfiyyət standartına cavab verməyən qanun əsasında həbs edilib və həbsdə saxlanılmasını məhkəmə yolu ilə mübahisələndirə bilmək imkanına sahib olmayıb.

*Qrupa daxil olan Çankayev Azərbaycana qarşı*, *Terşiyev Azərbaycana qarşı* qərarları da oxşar məzmunludur. Bu işlərdə işgəncə və ya pis rəftar riski səbəbindən ekstradisiyaya etiraz etmək üçün effektiv daxili müdafiə vasitələrinin olmaması vurğulanıb. Qeyd edilib ki, hökumət ərizəçiləri qəbul edilmiş qərarlar qüvvəyə minənə və ya 39-cu Qaydaya uyğun olaraq, növbəti qərar verilənə qədər təhvil verməməlidir. Bu işlərdə ərizəçilər Rusiyaya təhvil verilmişdilər.
Bu qrupa daxil olan Qarayev işi üzrə qərarlın icrası kontekstində fərdi tədbirlər mümkün olduğu qədər icra edilib. Ümumi tədbirlərə gəlincə, məhkəmə qərarı tərcümə edilib və uyğun personal arasında yayılıb. Tutulan şəxslərin ekstradisiya ilə bağlı hüquqlarının təmini .üzrə qanunvericiliyə dəyişikliklərlə bağlı tədbirlər yubanır. Çankayev və Terşiyev işi üzrə qərarların icrası ilə bağlı Hökumət AŞ NK-ya heç bir məlumat təqdim etməyib.

***İnsanov Qrupu işi*** çərçivəsində iki qərarın icrasına nəzarət edilir. AİHM qrupa daxil edilən İnsanov Azərbaycana qarşı və Rzaxanov Azərbaycana qarşı qərarlarında cəzaçəkmə müəssisələrində həddən artıq sıxlığın olması, isitmə sisteminin problemli olmasını, sanitar şəraitin zəifliyini, həbsxanalarda istirahət və təhsil imkanlarının mövcud olmamasını vurğulayıb. Bu qərarlarda digər qrupların əksəriyyətində olduğu kimi ədalətli məhkəmə araşdırması hüququ ilə əlaqəli təminatların zəifliyi problem də qaldırılır.

Bu qərarların icrası ilə bağlı ümumi və fərdi tədbirlərin icra durumu ilə bağlı hökumət gərəkli bilgiləri AŞ NK-ya təqdim etməyib.

***Məmmədli (keçmiş.Məmmədov Qrupu) Qrupu işi*** çərçivəsində AİHM-in 6 qərarının icrasına nəzarət edilir. Həmin qərarlar Anar Məmmədli, Natiq Cəfərov, İntiqam Əliyev, Rəşad Həsənov, Zaur Qurbanlı, Üzeyir Məmmədli, Rəşadət Axundov və Xədicə İsmayılova (№2) ilə bağlıdır. AİHM-in bu qərarları ərizəçilərin aktiv siyasi və sosial iştirakçılıqlarına, hökuməti tənqidə, insan hüquqları və seçkiləri izləmə sahəsində fəaliyyətlərinə görə Konvensiyanın 18-ci maddəsinə zidd olaraq məhkəməyə qədər həbs edilmələri və azadlıqdan məhrum olunmaları ilə bağlıdır. Bu qərarlar üzrə müəyyən edilmiş fərdi tədbirlər yarımçıq icra edilib. Ümumi tədbirlərə gəlincə:
- hökumətin öz tənqidçilərini və insan haqları müdafiəçilərini cəzalandırmaq, sıradan çıxarmaq üçün cinayət qanunvericiliyindən özbaşına istifadə etməsi təcrübəsini önləmək üçün təcili və təsirli addımların atılması;
- məhkəmə sisteminin müstəqilliyinin qorunması, onun icra hakimiyyəti də daxil olmaqla hər hansı yan təsirdən qorunması; sistemin Avropa Şurası standartlarına daha güclü uyğunluğunun təmin edilməsi; - istiqamətində addımların atılması yubanır. Həm də eyni və ya oxşar məzmunlu İ.Məmmədov Azərbaycana qarşı, Rəsul Cəfərov Azərbaycana qarşı qərarları üzrə Azərbaycan Ali Məhkəməsinin ortaya qoyduğu yanaşmanın bu qrupa daxilində nəzarət altında olan işlərə də tətbiq edilməsi yubanır.

***Xədicə İsmayılova Qrupunda*** ərizəçi ilə bağlı iki qərarın icrası nəzarət altındadır. Bu qərarlar tanınmış journalist olan ərizəçinin şəxsi həyata və nüfuza hörmət və ifadə azadlığı hüquqlarına (8 və 10-cu maddələrin pozuntusu) 2012-14-cü illərdə müdaxilə edilməsi ilə əlaqədardır. Ərizəçi ölkə prezidentinin ailə üzvlərinin biznes əlaqələri haqda araşdırmalarından sonra araşdırmalarına

son verməzsə, rüsvay ediləcəyi ilə hədələnmişdi. Ardınca, onun yataq otağından gizli çəkilmiş görüntülər yayılmış, hökumətyönlü qəzetlər nüfuzu zədələyən məqalələr dərc etmişdi.
Hər iki qərarın icrası kontekstində ərizəçiyə ədalətli əvəzin ödənilməsi (gecikmə faizi də hesablanmaqla) təmin edilməli, ərizəçiyə qarşı törədilən cinayət əməli araşdırlmalı, günahkarlar ədalət qarşısına çıxarılmalıdır.

***Məmmədov (Cəlaloğlu) Qrupu işi*** çərçivəsində AİHM-in Azərbaycanla bağlı 11 qərarının icrasına nəzarət edilir. ***Muradova Qrupu işi*** çərmivəsində 5, ***Mikayıl Məmmədov Qrupu işi*** çərçivəsində isə 8 qərarın icrası nəzarət altındadır. Bu qrup işlərinə daxil olan qərarlar ərizəçilərin yaxın qohumlarının ölümü, hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən iddia edilən pis rəftar, işgəncə ilə bağlı təsirli araşdırmanın aparılmaması ilə əlaqəlidir. AİHM qeyd edilən qruplara daxil edilən işlər üzrə qərarlarında müəyyən edib ki: ərizəçilərin pis rəftara məruz qalmasına dair kifayət qədər sübut olmasına rəğmən araşdırma aparmayıb; ərizəçilərin lehinə olan sübutlar nəzərə alınmayıb; xəsarətlərin / ölüm səbəbinin mənşəyini müəyyənləşdirmək üçün müvafiq ekspertizalar mövcud olmayıb; səlahiyyətlilər şübhəli şəxslərin mühakimə olunmasını təmin etmək üçün mümkün olan bütün tədbirləri reallaşdırmayıblar; habelə, həbslər özbaşına olub, qətimkan tədbirləri seçilərkən verilmiş qərarlar əsaslandırılmayıb; ictimai önəmli olayı işıqlandıran jurnalistə olayın iştirakçısı kimi yanaşılıb, güc tətbiq edilib; ərizəçilərin hüquqi nümayəndələrinə onlarla görüş imkanı verilməyib.
Qeyd edilən qruplar üzrə ərizəçilərə təzminatların ödənilməsini nəzərdə tutan fərdi tədbirlər tam icra edilməyib. Milli səviyyədə yenidən icraatların açılması yönündə tədbirlər barədə AŞ NK-ya gərəkli bilgilər təqdim edilməyib. Bir neçə işdə Ali Məhkəmənin Plenumu milli məhkəmə qərarlarını ləğv edib, işi araşdırılması üçün apellyasiya instansiyasına qaytarıb, amma həmin inbstansiyadakı icraat barədə hökumət gərəkli bilgiləri təqdim etməyib.
3 qrupa daxil edilən qərarların icrası kontekstində ümumi tədbirlərə gəlincə, hökumətin məlumatlarında bəzi addımların atıldığı – Azərbaycan prezidenti tərəfindən 2018-ci ildə verilmiş “Penitensiar müəssisənin fəaliyyətinin təkmilləşdirilməsi haqqında” sərəncamla cəza siyasətlərinin humanistləşdirilməsinin, alternativ sanksiyaların və azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan tədbirlərin tətbiqinin nəzərdə tutulduğu vurğulanıb, əlaqəli qurumlara – polisə və prokurorluğa işgəncə/qeyri-insani və ya ləyaqəti alçaldan rəftar hallarının qarşısının alınmasını təmin etməyin tapşırıldığı ifadə edilib.

***Hümmətov Qrupu işi*** çərçivəsində iki qərarın icrası nəzarət altındadır. Hər iki qərar tuberkulyoz və digər xəstəlikləri olan ərizəçilərin müalicə edilməməsi, aşağılayıcı rəftara məruz qalmaları, məhkəmə iclaslarının açıqlığının təmin edilməməsi ilə bağlıdır. Hümmətov Azərbaycana qarşı işində həm qanunvericilikdə, həm də təcrübədə tibbi müalicə ilə bağlı gərəkli effektiv vasitənin olmaması, bununla bağlı ədalətli məhkəmə araşdırması hüququnun pozuntusu tanınıb. Yunusova və Yunusov Azərbaycana qarşı işində AİHM, ərizəçilərin tibbi müəssisəyə köçürülməsinin təmin edilməli olmasına, hökumətin onların sağlıq durumu ilə bağlı hər ay bilgi təqdim etməsinə qərar vermişdi. Hər iki qərar üzrə fərdi tədbirlərin icrası qismən (gərəkli digər bilgilər açıqlanmayıb) təmin edilib.

***Natiq Mirzəyev Qrupu*** işində ümumilkdə 3 qərarın icrasına nəzarət edilir. Bu qərarlarda da tibbi müalicə məsələsi, tibbi müalicə məsələsi ilə bağlı məhkəməyə müraciət hüququnun məhdudlaşdırılması məsələsi qaldırılır. Bu qərarların icra durumu ilə bağlı gərəkli bilgilər AŞ NK-ya təqdim edilməyib. Məsələn, N.Mirzəyev işində 2012-ci ildə Ali Məhkəmənin Plenumu aşağı məhkəmələrin qərarlarını ləğv edib və işi araşdırılması üçün apellyasiya instansiyasına göndərib. Həmin vaxtdan bəri görülən işlər barədə hər hansı bilgi təqdim edilməyib.

***Ramazanova və Digərləri Qrupu*** işində 6 qərarın icrasına nəzarət edilir. Bu qərarlar 2007-10-cu illərdə elan edilib. Bu qərarlar qeyri-hökumət təşkilatlarının qeydiyyatı ilə bağlı qanunların düzgün tətbiq edilməməsi, bəzi durumlarda qeydiyyatın ləğv edilməsi səbəbindən birləşmək hüququnun pozuntusu ilə əlaqəlidir. Bu qrupa daxil olan işlərdə 1 təşkilat istisna olmaqla, digər

QHT-lər AİHM qərarından sonra dövlət qeydiyyatına alınıblar. Ümumi tədbirlərə gəlincə, hökumət AŞ NK-ya bildirib ki, yeni düzənləməyə görə, hər hansı QHT qeydiyyat üçün müraciətlərinə 40 gün müddətində cavab verməzsə, avtomatik qeydiyyata alınmış sayılır və 10 gün ərzində qeydiyyat sənədini əldə edə bilər. Bu qərarların icrası ilə bağlı hökumət, AŞ NK-ya qeydiyyatını gözləyən QHT-lər, qeydiyyat qanunvericiliyinin durumu barədə bilgiləri və milli qanunvericiliyin AİHM presedentinin işığında analizini təqdim etməlidir.

***Fərhad Əliyev Qrupu*** işi çərçivəsində ümumilikdə 22 qərarın icrası nəzarət altındadır. Bu qərarlar ərizəçilərin məhkəmə qərarı olmadan həbs edilməsi, əsaslı şübhə və yetərli səbəblər olmadan həbs müddətinin artırılması, həmin məhkəmə proseslərinin pozuntularla müşayət olunması, ərizəçilərin arqumentlərinin nəzərə alınmaması, təqsirsizlik prezumpsiyası hüququna müdaxilə edilməsi, məhkəmə qərarları olmadan mülkiyyət hüququna müdaxilə ilə əlaqəlidir. Bu qərarlar üzrə maddi təzmiantların ödənilməsi təmin edilib. Ancaq əksər işlərdə məhkəmə araşdırması yenilənməyib.

***Hacıbəyli Qrupu işində*** 3 qərarın icrasına nəzarət daxildir. Bu qərarlar ərizəçilərin hərəkət azadlığı hüququnun pozuntusu ilə əlaqədardır. Bu qrupa daxil olan Kərimli Azərbaycana qarşı işində onların pasportlarının yenilənməsindən imtina olunub. Həm bu, həm də Hacıbəyli Azərbaycan qarşı işlərində ərizəçilərə tətbiq edilən məhdudiyyətlər uzun illər öncə açılmış cinayət işləri ilə əlaqələndirilib. Mürsəliyev və digərləri Azərbaycana qarşı işi 11 ərizəçinin şikayətlərin üzrədir. Onlar müxtəlif cinayət işlərinə şahid qismində cəlb ediliblər və hərəkət azadlıqları məhdudlaşdırılıb. Hökumət qrupa daxil olan işlər üzrə fəaliyyət planı təqdim etməyib. Bununla belə, Hacıbəyli işi üzrə ərizəçiyə tətbiq edilən məhdudiyyət edilib. Mürsəliyev və digərlərinin işində isə rəsmi bilgilərə görə, 2 ərizəçiyə tətbiq olunan məhdudiyyət qaldırılıb.

***Sarqsyan Qrupu işi*** Sarqsyan Azərbaycana qarşı qərarının icrası ilə bağlıdır. Bu işdə ərizəçi vaxtilə Azərbaycanda yaşayan ermənidir. AİHM olayların baş verdiyi ərazilərin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinə daxil olması qənaətinə gəlib. Eyni zamanda ərizəçiyə təzminat ödənilməsinə qərar verib.

***Hüseyn və digərləri Qrupu işi*** çərçivəsində AİHM-in 8 qərarının icrasına nəzarət edilir. Bu qərarlar əsasən, müxalif siyasi fəallara, siyasi məhbuslara, müstəqil jurnalistlərə qarşı açılan cinayət işlərinin əsassız olması ilə əlaqəlidir. Bu qrupa daxil olan qərarlarda AİHM müəyyən edib ki: prokuror və müstəntiq ilə ailə bağları olan hakimə edilən etirazlar məhkəmə tərəfindən rədd edilib, ərizəçilərin istintaq materialları ilə tanış olması üçün, müdafiə üçün gərəkli zaman və imkana sahib olmamaları, məhkəmələrin bəzi şahidlərin pis rəftara məruz qalmaqla ifadə verməyə məcbur edilməsinə, həmin ifadələrin geri götürülməsi barədə vəsatətlərə əhəmiyyət verməməsi, daxili məhkəmələrin ərizəçinin etirazlarını və sübutların həqiqiliyini araşdırmaması, onları ərizəçiyə qarşı istifadə etməsi, ərizəçilərin əksəriyyətinin Apelyasiya Məhkəməsindəki dinləmələrdə iştirakının təmin edilməməsi, yüksək rütbəli vəzifəlilər tərəfindən mətbuatda ərizəçilərin cinayət törətmələri ilə bağlı açıq və dəqiq məzmunlu bəyanatların verilməsi, ərizəçilərin iki ayrı məhkəmə işində (cinayət və inzibati qaydada) mühakimə edilməsi.

Bu məhkəmə işlərində AİHM, pozuntuların ən uyğun kompensasiya formasının, prinsipial olaraq, yeni icraatın açılması olduğu qənaətinə gəlib. Yeni icraatla bağlı hansı tədbirlərin görülməsi ilə bağlı Azərbaycan hökuməti AŞ NK-nı məlumatlandırmayıb.

# 2002-2021: Azərbaycan – Avropa İnsan Haqları Məhkəməsi

*Araşdırma* | *Mart, 2021* | Media Hüququ Qrupu

***Hazırladı:*** Xalid Ağaliyev
***Əlaqə:*** khall_aghall@protonmail.com